QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 049 (6249) 17 mart 2021-ci il Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb. AZƏRTAC-ın məlumatına görə, paylaşımda deyilir:**

"Əziz bacılar və qardaşlar!

Bu gün - Torpaq çərşənbəsi günündə biz yenidən doğma Şuşa şəhərimizi ziyarət etdik. Səfərimizin görüntülərini böyük məmnuniyyətlə sizinlə paylaşıram. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və əmin-amanlıq arzulayıram! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm! Uca Tanrı sizi və doğmalarınızı qorusun!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN"

## "Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar*



Bax 2

## Bakının cənub girişində yaşıllıq salındı



Novruz bayramı qabağı Torpaq çərşənbəsi günündə Bakı şəhərinin əsas girişi olan Yeni Salyan şossesinin kənarında, Jurnalist şəhərciyinin yanında 400-dək ağac əkilib. Ərazidə təşkil olunan ağacəkmə kampaniyasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçiləri, həmçinin Jurnalist şəhərciyindəki binalarda yaşayan sakinlər...

Bax 10

## 1995-ci ilin mart hadisələrindən 26 il ötür

1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Hərc-mərclikdən, özbaşınalıqdan qurtulan Azərbaycanı yenidən uçuruma sürükləməyə cəhd göstərilirdi. 1995-ci ilin mart hadisələri. Bu gün həmin tarixdən 26 il ötür. Ölkədə...



Bax 12

## "Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq"



Martın 15-də təməli qoyulan və uzunluğu 43 kilometr olacaq Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat qeyd edib ki, bu yol başlanğıcını Azərbaycanın tarixi ərazisi olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən, yəni Hadrut yaşayış məntəqəsindən götürəcək və işğaldan azad olunan...

Bax 6

### Armen Sarkisyan da "şpion" çıxdı?



Bax 13

### Osmanqızı-Kərimli savaşı: qalib yoxdur, yalnız məğlublar var!




Bax 14

### Ronaldonun yoxluğu "Real"ı 304 milyon avro ziyana salıb



Bax 16

# “Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar*

**Xəbər verildiyi kimi, martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev qeyd edib ki, Azad edilmiş torpaqların bərpası başlamışdır:**

- Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir - Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır.



*“Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir”*







Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

X X X

Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

X X X

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası “Artsax dövləti” - cəhənnəmə getdi. “Dövlət” idisə, bəs, niyə daşdaş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır. Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura da Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib.

Ardı Səh. 3

# "Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar*





## *Azərbaycan Prezidenti: Bizim 44 günlük şanlı müharibəmiz dünyanın aparıcı ali məktəblərində öyrənilir*





Əvvəli Səh. 2

Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün, necə gözəl mənzərədir.

X X X

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir - oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

*Ardı Səh. 4*

# “Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar*



## Prezident: Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik hadisə idi

Əvvəli Səh. 3

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

X X X

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.

X X X

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

Dövlətimizin başçısı dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: “Kolxozların torpaqlardan əbədilik faydalanması üçün”. Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

X X X

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış oldular.

Prezident İlham Əliyev:

-Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.



Ardı Səh. 5

# “Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar*





Əvvəli Səh. 4

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? “Kamo”, “Artur”, nə bilim, “Marta”. Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - “İqor”, “Aşa”? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.

X X X

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

Prezident İlham Əliyev: Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

Birinci xanım Mehriban Əliyeva: Budur məktəbin binası?

Prezident İlham Əliyev: Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.

Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar. Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlətimizin başçısı və xanımı Tuğda Alban məbədində oldular.

Prezident İlham Əliyev: Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

X X X

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

Dövlətimizin başçısı: Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir. Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.



# “Israel HaYom” qəzeti: Azərbaycanın hərbi təlimlərində İsrail silahı xüsusi yer tutacaq

**Bu gün Azərbaycan Ordusu silahlı qüvvələrin müxtəlif növlərinin iştirakı ilə iri hərbi təlimlərə başlayır. Bu təlimlərdə Bakının sərəncamında olan məşhur Türkiyə və İsrail silahlarından istifadə olunmasına xüsusi diqqət yetiriləcək.**


ישראל היום
< בחירות 2021 חדשות | כל הכותרות | דע >
פורסם ב: 18:12 13.03.2021 | עודכן ב: 23:31 13.03.2021 / 18
השמעת כתבה

צבא אזרבייג'ן יחל מחר (שני) תרגיל צבאי גדול, בהשתתפות חילותיו השונים, ובו יינתן דגש גם על השימוש באמל"ח הישראלי הרב שנמצא בידי באקו. בכיר במשרד ההגנה האזרי סיפר ל"ישראל היום" כי במסגרת האמצעים מתוצרת ישראל שהם ישתמשו יהיו רכבי קרקל, טילי נ"ט "ספייק" מדגם תמוז, טיל הנ"ט "להט" בעל הנחיית הלייזר החצי-אקטיבית

AZƏRTAC xəbər verir ki, israilli məşhur jurnalist Din Şmuel Elmasın adı çəkilməyən bir hərbi mənbəyə istinadla yazdığı və İsraildə çıxan nüfuzlu ivritdilli “Israel HaYom” qəzetində dərc edilmiş məqaləsi bu mövzuya həsr edilib. Məqalə müəllif vurğulayır ki, hərbi təlimlərdə İsrail istehsalı olan müxtəlif hərbi vasitələrdən istifadə ediləcək. Din Şmuel Elmasın fikrincə, Azərbaycan ordusu hərbi hava qüvvələri səviyyəsində “Aeronautics” şirkətinin istehsal etdiyi “Orbiter” silahlarının müxtəlif modellərindən istifadə edəcək.

Adının çəkilməsini istəməyən hərbi mənbə “Israel HaYom” nəşrinə müsahibədə deyib: “Kəşfiyyat məlumatlarının toplanması üçün uzun müddət havada qalması nəzərdə tutulan “Hermes-450” və “Hermes-900” pilotsuz uçuş aparatlarından, habelə ən uğurlu vasitələrindən biri - Vətən müharibəsində Azərbaycanın tətbiq etdiyi, IAI şirkətinin istehsalı olan “Harop” PUA-dan istifadə ediləcək. Bizim istifadə edəcəyimiz başqa silahlar da var. Onlar ölkələrimiz arasında həqiqi dostluğun rəmzinə çevrilib”.

Məqalə müəllifi vurğulayır ki, Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi altında keçiriləcək təlimlərdə 10.000-dən çox əsgər, 100-ə yaxın tank və zirehli texnika, təqribən 200 raket və artilleriya qurğusu, müxtəlif raket kompleksləri, minaatanlar, qırıcı təyyarələr, habelə müxtəlif tipli pilotsuz uçuş aparatları iştirak edəcək.

Müəllif daha sonra yazır: “İrimiqyaslı hərbi təlimlər Vətən müharibəsi dövründə Azərbaycan əsgərləri və zabitləri üçün əla təcrübənin bir hissəsi olacaq. Məlum olduğu kimi, bu müharibə Azərbaycan üçün böyük uğurla başa çatdı, lakin Qələbədən arxayınlaşmayan Azərbaycan Ordusu öz silahlı qüvvələrini daha da təkmilləşdirməyə çalışır. Hərbi təlimlər çərçivəsində müxtəlif bölmələr - artilleriya, hərbi hava qüvvələri və xüsusi təyinatlı qoşunlar arasında koordinasiya və hərtərəfli döyüşün sürətli təşkili üsulları öyrəniləcək. Təlimlərin cümə axşamı başa çatacağı gözlənilir.

İsrail-Azərbaycan münasibətləri üzrə ekspert, “İsraildə Azərbaycan Evi”nin rəhbəri Arye Qut “Israel HaYom” qəzetinə müsahibəsində deyib: “Cənubi Qafqaz regionunda Azərbaycanın çoxvektorlu xarici siyasətində İsrail dövləti xüsusi yer tutur. Bir neçə il bundan əvvəl İsrailin Baş naziri Benyamin Netanyahunun Azərbaycana tarixi rəsmi səfəri və Vətən müharibəsində İsrailin real texnoloji və hərbi-texniki dəstəyi bir daha təsdiq etdi ki, İsrail ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır.

Ermənilər həsəd apara, təxribatlar və əsassız informasiya yayımı ilə məşğul ola bilərlər, lakin indi tarixi fakt belədir ki, İsrailin müdafiə şirkətləri Azərbaycanda hərbi sənaye yaradılmasında fəal iştirak ediblər və bu iştirak davam edir.

İsrail ilə səmimi və uzunmüddətli münasibətlər Azərbaycan üçün çox vacibdir, İsrail dövləti də Azərbaycan ilə öz münasibətlərini qoruyub saxlayır və yüksək qiymətləndirir. Məhz bu səbəbdən həmin münasibətlər strateji xarakter daşıyır. İsrail Cənubi Qafqazda özünün mühüm geosiyasi və geostrateji tərəfdaşının qələbəsinə həmişə sevinib”.


النائبة الاولى للرئيس تنشر على
صفحتها “انستغرام” مقاطع فيديو
زيارة الاراضي المحررة

# Misir portalı Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfərindən yazıb

**Misirin “Əl Diplomasi” informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Füzuli və Xocavənd rayonlarına səfərindən bəhs edən xəbər yerləşdirilib.**

AZƏRTAC-a istinadla yerləşdirilən xəbərdə, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərdən yaydığı görüntülər də yer alıb.

# “Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq”

**Martın 15-də təməli qoyulan və uzunluğu 43 kilometr olacaq Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu region üçün strateji əhəmiyyət daşıyacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov deyib.**



Deputat qeyd edib ki, bu yol başlanğıcını Azərbaycanın tarixi ərazisi olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən, yeni Hadrut yaşayış məntəqəsindən götürəcək və işğaldan azad olunan digər bölgələri birləşdirəcək. Belə ki, 4 hərəkət zolaqlı yol Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndinədək uzanacaq. Digər tərəfdən, yeni yol Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcək. Praktik olaraq Zəngəzur dəhlizi vasitəsilə “Şərq-Qərb” beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Yol dəhliz vasitəsilə həm də Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı iş adamları arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından vacibdir ki, bu da qısa vaxtda məhsulların nəql edilməsinə imkan yaradacaq. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də işğaldan azad olunan ərazilərimizin və Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına müsbət təsirləri olacaq.

# DİN Ağdamda minaya düşən şəxslərlə bağlı məlumat yayıb

***Müvafiq icazə almadan, eləcə də nəzarət postlarından kənar yollarla işğaldan azad edilmiş ərazilərə mülki şəxslərin keçmələrinin onların həyat və sağlamlıqları üçün ciddi təhlükə olması və buna görə də belə hərəkətlərdən çəkinmələri barədə dəfələrlə xəbərdarlıqlar edilməsinə baxmayaraq, hələ də ayrı-ayrı şəxslərin öz həyatlarını təhlükə qarşısında qoyaraq nəzarət postlarından kənar yollarla işğaldan azad olunmuş, lakin minalardan tam təmizlənməmiş ərazilərə daxil olmaları hallarına rast gəlinir.***

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Məlumatda deyilir: “Bu gün - martın 16-da saat 17 radələrində Ağdam rayonunun Əfətli kəndində yaşayan Hüseynov Akif, oğlanları Razi, Bayram, Anar və qonşuları Bəhruz Abdulov Yusifcanlı kəndi ərazisindəki qəbiristanlıqda dəfn edilmiş yaxınlarının məzarını ziyarət etmək məqsədilə kənar şəxslərin girişinə məhdudiyyət qoyulmuş və minalardan təmizlənməmiş əraziyə daxil olarkən minaya düşüblər. Nəticədə Razi və Bayram Hüseynov qardaşları həlak olub, digər 3 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilib. Faktla bağlı cinayət işi başlanılıb, istintaq aparılır.




Bir daha vətəndaşlarımızı ərazilərin minalardan tam təmizlənməsi işi başa çatanadək belə səfərlərdən çəkinməyə çağırırıq. Əks təqdirdə belə səfərlər onların həyat və sağlamlıqlarını itirmələri ilə yekunlaşa bilər”.

# Serbiya 2022-ci ildə Azərbaycan qazını əldə edəcək

***Bolqarıstan-Serbiya interkonnektoru (IBS) Azərbaycandan qaz idxal etməyə imkan verəcək. Trend bu barədə “Bulgartransgaz” şirkətinə istinadən məlumat verir. Məlumatda qeyd olunur ki, 2017-ci ilin yanvarında iki ölkənin energetika nazirləri anlaşma memorandumu imzalayıb:***

“İnterkonnektorun 2022-ci ilin mayında istifadəyə verilməsi planlaşdırılır. Qaz kəməri ildə 1,8 milyard kubmetr qaz tədarük edəcək. Bu layihə Azərbaycandan, Yunanıstanın mayeləşdirilmiş qaz terminalından və Şərqi Aralıq dənizindəki yeni qaz kəmərində təbii qaz idxal etməyə imkan verəcək.. Həmçinin Serbiya qonşu ölkələrlə interkonnektorlar vasitəsilə qaz mənbələri və marşrutlarının şaxələndirilməsi üçün imkanları nəzərdən keçirir”.

## Azərbaycanda vaksinasiyadan keçənlərin sayı açıqlanıb

Azərbaycanda bu günə kimi 458 mindən çox şəxs vaksinasiya olunub. Bu barədə SİA-ya Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Qeyd olunub ki, vaksinasiya Respublikanın bütün rayonlarında davam etdirilir: “Martın 15-də Azərbaycan Respublikasında yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 10,518 nəfər vaksinasiya olunub. Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 458,958 nəfər peyvəndlənmə prosesində iştirak edib. Vaksinasiya Respublikamızın bütün rayonlarında uğurla davam etdirilir”.





# "Azərbaycanın bəxti onda gətirib ki..." - nüfuzlu xarici nəşr Prezident İlham Əliyevin uğurlarından yazdı

**Moldova Effektiv Siyasət İnstitutunun direktoru, tanınmış siyasi politoloq, tarix elmləri doktoru Vitali Andrievskinin nüfuzlu ava.md informasiya agentliyində "Azerbaydjanskiy prorıv" ("Azərbaycanda sıçrayış" - red.) adlı məqaləsi dərc olunub. Məqalədə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev güclü və effektli lider kimi özünü təsdiqləyib. "Əgər başqa rəhbərlərlə müqayisə etmək lazım gəlsəydi, o zaman mən onu Ərdoğanla (Türkiyə), Tszinpin (Çin) və Nazarbayevlə (Qazaxıstan) yanaşı qoyardım", - müəllif qeyd edib. SİA-nın verdiyi məlumata görə, məqalənin girişində Azərbaycan dövlət başçısının Mayo Sandunun Moldova prezidenti seçilməsi münasibətilə ona ünvanlandığı təbriki, iki ölkənin MDB, GUAM və Avropa Birliyinin "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində tərəfdaş və ortaq hədəflərə malik ölkələr olduğunu xatırladır. Azərbaycanın Moldovadakı səfiri Qüdsü Osmanovla söhbətin yekununda "bu ölkəni təzədən kəşf etdim", - deyə, vurğulayır.**

"Dünya Bankının qiymətləndirməsinə görə, Azərbaycan dünyanın 190 ölkəsi arasında 28-ci yerdədir və ən çox islahatlar aparan ölkələrin ilk onluğuna daxildir. Ölkə əhalinin elektrik təchizatına görə dünyada ikinci yerdədir. Qlobal olaraq ikinci yer! Möhtəşəm. Hökumətin islahatlara görə məsuliyyət əmsalı, yəni islahatçı imic əmsalına görə isə Azərbaycan dünyada beşinci yerdədir. Hökumətin uzunmüddətli strategiyası göstəricisi üzrə 10-cu yerdə Azərbaycandır. Hökumət tərəfindən siyasi sabitliyin təmin edilməsi göstəricisinə görə, 11-ci yerdədir. İnfrastruktur layihələri sahəsindəki nailiyyətlər də heyranedicidir: dəmir yolu xidmətlərinin səmərəliliyi baxımından - 11-ci, hava yolları xidmətlərinin səmərəliliyi üzrə - 12-ci yerdə. Magistral yolların keyfiyyətinə görə - 24-27-ci yer. Bu hesablama 74 inkişaf etməkdə olan ölkə arasında aparılıb. Təəssüf ki, Moldova bu göstəricilərdə Azərbaycandan çox geri qalır və bizim tərəfdaş ölkədən öyrənəcəyimiz çox şey var. Azərbaycan hərtərəfli inkişaf indeksi üzrə üçüncü yerdədir" - müəllif yazıb.

Daha bir maraqlı fakt onun qənətincə, Azərbaycanın kosmos dövlətinə çevrilməsidir: "Hazırda Azərbaycanda iki peyk var - telekommunikasiya peyki və əraziləri izləmək üçün peyk. Üçüncü peyk bu il orbitə çıxarılacaq. Etiraf edim ki, Azərbaycanın bir çox uğurları məni heyrətləndirdi və təəccübləndirdi. Düzü, postsovet respublikalarından birinin bu cür uğur qazana biləcəyini gözləmirdim. Bəs uğurlarının səbəbi nədir və daha nələrə nail olunub?"

Müəllifin əminliyinə görə, əsas səbəb ölkə sükanı arxasında kimin durması və onun hansı siyasəti yürütməsi ilə bağlıdır: "Azərbaycanın bəxti bu xüsusda gətirib. Heydər Əliyevin şəxsiyyəti bizim nəslin insanlarına yaxşı məlumdur. Görkəmli siyasətçi və lider. SSRİ dövründə diqqət çəkirdi, SSRİ Nazirlər Sovetinin sədri olacağına dair söz-söhbətlər vardı. SSRİ dağılandan sonra Heydər Əliyev Azərbaycan Prezidenti seçildi və qısa müddətdə ölkədəki siyasi vəziyyəti sabitləşdirməklə yanaşı, həm də Azərbaycanı iqtisadi və sosial böhrandan çıxarmaq üçün şərait yaratdı. Heydər Əliyevdən sonra xalq ölkədəki ən yüksək postu onun oğlu İlham Əliyevə etibar etdi. Əfsanəvi atasının etdiklərindən sonra İlham Əliyevin üzərinə hansı məsuliyyətin düşdüyünü təsəvvür etmək olar. Və etiraf etməliyik ki, İlham Əliyev ona göstərilən etimadı doğrultdu. Azərbaycan Prezidenti güclü və effektli lider kimi özünü təsdiqlədi. Əgər başqa rəhbərlərlə müqayisə etmək lazım gəlsəydi, o zaman mən onu Ərdoğanla (Türkiyə), Tszinpin (Çin) və Nazarbayevlə (Qazaxıstan) yanaşı qoyardım".



Məqalədə bildirilir ki, böyük ölçüdə məhz İlham Əliyev sayəsində Azərbaycanda özünün ərazi bütövlüyü bərpa edib, modernləşmə başlayıb və xalqın rifah halı yüksəlib: "Bir çoxları bunu xeyli ölkədə öyrənilən parlaq hərbi əməliyyat olduğunu vurğulayır. Bu, əlbəttə ki, doğrudur. Hərbi əməliyyatlar göstərdi ki, Azərbaycan nəinki müasir bir ordu yaratmağı bacarıb, eyni zamanda bu ordu zəmanəmizin ən yaxşı texniki nailiyyətlərindən istifadə edib. Bütün bunlar mühümdür, amma əsas olan başqa şeydir. Məsələ ondadır ki, söhbət Azərbaycan xalqının iradəsi, onun siyasi rəhbərliyinin və hər şeydən əvvəl də İlham Əliyevin müdrikliyi ilə yanaşı, ondan gedir ki, işğal olunmuş torpaqları geri qaytarmaq üçün aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan özünü qisasçı kimi aparmadı, baxmayaraq ki, buna mənəvi haqqı var idi. Və daha bir vacib məqam: işğal olunmuş ərazilərin azad edilməsindən çox az vaxt keçib, lakin Azərbaycan artıq bu gün bölgənin bərpasına və inkişafına nail olmaq üçün nəyi və necə edəcəyini yaxşı bilir. Görüləsi işlər isə çoxdur. Azərbaycan İqtisadiyyat İnstitutunun direktorunun dəyərləndirməsinə görə, geri qaytarılmış ərazilərin tam bərpası yaxın 10 ildə 100 milyard manata (59 milyard dollar) başa gələcək..."

Ardınca qeyd edilir ki, məsuliyyətli hökumət, siyasi sabitlik, inkişafa və quruculuğa yönəlmək xətti Azərbaycana sərmayələrin cəlb olunmasını təmin edir. "Son 15 ildə Azərbaycana qoyulan həm xarici, həm də yerli investisiyaların ümumi həcmi təxminən 230 milyard dollar təşkil edir. Nəticədə son 10 ildə Azərbaycan iqtisadiyyatı 300%-dən çox artıb. Neft və qaz sektoru, şübhəsiz ki, Azərbaycanın iqtisadi artımının aparıcı faktorudur. Heydər Əliyev gələcək siyasi və iqtisadi islahatlar üçün əsas olan və Cənub Qaz Dəhlizi kimi nəhəng bir layihənin həyata keçirilməsinə zəmin yaradan neft strategiyasını da müəyyənləşdirdi. İlham Əliyevin dövründə sənaye modernləşdirildi və daha da inkişaf etdirildi. Cənub Qaz Dəhlizi 31 dekabr 2020-ci ildə tam istismara verildi. Son seqmenti olan TAP-ın tikintisi tamamlandı. Tarixdə ilk dəfə olaraq Azərbaycan qazı Avropa məkanına çatdırıldı. Beləcə, Azərbaycan Avropaya qaz tədarükçüsü və ixracatçısı oldu", - məqalədə bildirilir.

Müəllif daha sonra yazır: "Gündəmdə həm də sənayen və kənd təsərrüfatının inkişafıdır. Burada da uğurlar var. Təkcə keçən il pandemiyaya baxmayaraq, sənaye istehsalı 11 faizdən çox artıb. Son 10 ildə Azərbaycanın demək olar ki, bütün infrastrukturu modernləşdirilib. Yeni yollar salınıb, 6 beynəlxalq hava limanı tikilib, Xəzərdə ən böyük dəniz limanı inşa edilib. Ölkənin elektrik sisteminə böyük investisiyalar qoyulub. 30 elektrik stansiyası tikilib. Beləliklə, əvvəllər Azərbaycan elektrik enerjisi idxal edib və pulunu xarici valyuta ilə ödəyirdisə, hazırda nəinki özünü elektrik enerjisi ilə tam təmin edir, həm də onu ixrac etməyə başlayıb".

Yazıda Azərbaycan hökumətinin əhalinin maaş və pensiyaların artımına böyük diqqət yetirdiyi də qeyd edilir: "Son illər orta əmək haqqı və pensiya təqribən 13-14% artıb. Və son 15 ildə maaşlar 5, təqaüdlər 8 dəfədən çox artıb, bir çox mühüm sosial layihələr həyata keçirilib. Axırıncı 15 ildə 1,4 milyonu daimi olmaqla 1,9 milyon iş yeri yaradılıb. Eyni zamanda, əhali sayı 1,5 milyon artıb. 2004-cü ildə Azərbaycanda qazlaşdırma səviyyəsi yüzdə 51 idi. Əvvəllər kəndlərdə və bir çox şəhərlərdə qaz təchizatı yox idi. Hazırda Azərbaycanda qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlər yüz faiz qazla təmin olunub. Yol tikintisi infrastruktur layihələri arasında mühüm yer tutan sahədir. Bu həm iqtisadi, həm də sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Yeni yolun çəkildiyi yerdə bazarlara giriş rahatlaşdığı üçün bütöv bölgə canlanır, kənd təsərrüfatı istehsalı artır. Beləliklə, yol infrastrukturu yalnız sosial layihə deyil".

Müəllif Azərbaycanın xarici tərəfdaşlarla möhkəm əlaqələr qurmasına da diqqət çəkib: "Avropa Birliyinin 9 üzv dövləti ilə strateji tərəfdaşlıq sənədləri imzalanıb. Bakı Pakistanla hərbi-texniki əməkdaşlığın davam etdirilməsində maraqlıdır. Bununla yanaşı, Pakistanla iqtisadi və nəqliyyat əməkdaşlığı inkişaf etməyə başlayıb. Türkiyə ilə ikitərəfli əlaqələrin inkişafı müxtəlif sahələrdə davam edir".

Prezident İlham Əliyev az öncə imzaladığı "Azərbaycan 2030" Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlərinin təsdiq edilməsi haqqında fərmanını yada salan müəllif yazır: "Sənədə görə yaxın 10 ildə 5 milli prioritet həyata keçirilməlidir:

- Davamlı inkişaf edən rəqabət qabiliyyətli iqtisadiyyat;
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- Rəqabətçi insan kapitalı və müasir innovasiyalar məkanı;
- Azad edilmiş ərazilərə böyük qayıdış;
- Təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi".

Məqalənin sonunda bir daha Moldovanın Azərbaycandakı inkişaf və uğurlardan nümunə götürməli olduğunu vurğulanır və səfir Qüdsü Osmanovdan belə bir sitat gətirilir: "Bütün bunlar Azərbaycan üçün böyük bir uğurdur, hansı ki, Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində mümkün olub və gələcəkdə hər şey yalnız daha yaxşı olacaq. Çünki ölkə rəhbərliyinin məqsədi - uzunmüddətli davamlı inkişafı təmin etməkdir ki, müstəqillik əbədi olsun, dövlətimizin qüdrəti, təsir imkanlarımız artsın və Azərbaycan xalqı daima öz əcdadlarının torpağında təhlükəsizlik şəraitdə yaşasın".

# Milli Məclisdə Nazirlər Kabinetinin hesabatı dinlənilib

**Martın 16-da Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib. İclası açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, bu gün Milli Məclisin yaz sessiyasının beşinci iclasıdır və Konstitusiyaya uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.**

Sədr diqqətə çatdırıb ki, 2020-ci il ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın apardığı 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatıb, dövlətimizin ərazi bütövlüyü təmin olunub. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın işğaldan azad edilməsi ölkəmizin qarşısında tamamilə yeni perspektivlər açıb. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə möhtərəm Prezidentimiz deyib: "Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. ...bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur".

Sədr qeyd edib ki, 2020-ci ildə bütün dünya, o cümlədən Azərbaycan COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşayıb. Buna baxmayaraq, ölkəmiz bu ağır vəziyyətdən nisbətən az itkilərlə çıxa bilib. Koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan şəxslərə və işsizlərə ünvanlanan irimiqyaslı sosial paket icra olunub. Sahibkarlara vergi güzəştləri tətbiq edilib. Belə bir çətin ildə qeyri-neft sənayesinin 11 faiz artması məhz dövlət tərəfindən həyata keçirilən düşünülmüş tədbirlərin nəticəsində mümkün olub.




Parlamentin sədri bildirib ki, müharibənin, koronavirusla mübarizənin böyük maliyyə vəsaitləri tələb etdiyi, həmçinin sərt karantin rejiminin və aşağı neft qiymətlərinin mövcudluğu şəraitində ölkəmizin valyuta ehtiyatları qorunub saxlanılıb və hətta artırılıb. Sahibə Qafarova vurğulayıb ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır.

Ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təkliflərin icrası üçün görülmüş işlərə dair ətraflı məlumat təqdim edilib. Eyni zamanda, hesabata ilk dəfə olaraq 6-cı çağırış Milli Məclis deputatlarının sosial və infrastruktur obyektlərinin əsaslı təmirinə və tikintisinə, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına dair təkliflərinin icrası barədə məlumat da daxil edilib. Milli Məclisin sədri çıxışının sonunda bugünkü müzakirələrin səmərəli olacağına əminliyini ifadə edib. Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.

Baş nazir Əli Əsədov öz çıxışında diqqətə çatdırıb ki, 2020-ci il Azərbaycan Respublikasının şanlı dövlətçilik və müstəqillik tarixində möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın Müzəffər Ordumuz tərəfindən azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə əlamətdar olub:

"44 gün davam edən Vətən müharibəsində qazandığımız bu möhtəşəm Zəfər əsgər və zabitlərimizin sarsılmaz iradəsini, xalqımızın yenilməz ruhunu və qələbə əzmini, xalq-iqtidar birliyini bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi. Bir daha böyük Qələbə münasibətilə Ali Baş Komandanı, Silahlı Qüvvələrimizi, bütün xalqımızı, sizləri - hörmətli deputatları ürəkdən təbrik edirəm.

2020-ci il COVID-19 pandemiyasının yaratdığı fəsadlara baxmayaraq, bir sıra mühüm siyasi, iqtisadi və sosial hadisələrlə yadda qalmışdır.

VI çağırış Azərbaycan Respublikası Milli Məclisinə demokratik şəraitdə keçirilmiş seçkilər ötən ilin mühüm siyasi hadisələrindən biri olmuşdur. Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşmışdır. Hesabat ili ərzində hökumətlə Milli Məclis arasında işgüzar əməkdaşlıq münasibətləri daha da dərinləşmişdir. Nazirlər Kabineti istər büdcə müzakirələrində, istərsə də hökumətin illik fəaliyyətinin təqdimatı zamanı parlament üzvlərinin sorğu və təkliflərinə diqqətlə yanaşmışdır.

Hesabat ilində strateji layihələrin icrası, sosial-iqtisadi və digər islahatların həyata keçirilməsi sahəsində aparılan məqsədyönlü işlər davam etdirilmişdir. Ötən ilin son günlərində Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP-ın istismara verilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Avropaya ixracına başlandı. Bir çox ölkələri birləşdirən Cənub Qaz Dəhlizi, cənab Prezidentin qeyd etdiyi kimi, Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur.

2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir.

Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra pozisiyalar üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən, elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Ötən il həm də bütün dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə və onun neqativ təsirlərinin aradan qaldırılması məqsədilə davamlı tədbirlər həyata keçirilmişdir. Bu xəstəliyə qarşı mübarizənin səmərəli və koordinasiyalı şəkildə aparılması üçün Prezidentin Sərəncamı ilə Operativ Qərargah yaradılmışdır.

Dövlətimizin başçısının tapşırığına əsasən, dövlətin bütün imkan və resursları xəstəliklə mübarizəyə yönəldilmiş, vətəndaşlarımızın sağlamlığının qorunmasına səfərbər edilmişdir. Ölkədə maska və dərman qıtlığı aradan qaldırılmış, laboratoriyaların sayı artırılmış, testlərin təchizatı təşkil olunmuş, qısa müddət ərzində modul tipli xəstəxanalar yaradılmış, mövcud xəstəxanaların bir çoxu koronavirusla mübarizəyə cəlb edilmişdir. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə il ərzində xarici ölkələrdən tibbi personal dəvət edilmişdir. Koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı ötən il səhiyyə xərclərinə 644 milyon manat vəsait ayrılmışdır.

Cənab Prezidentin Fərmanı ilə yaradılmış xüsusi dəstək fonduna 114 milyon manatdan artıq vəsait yığılmışdır. Fondun vəsaitindən istifadə olunaraq koronavirusa qarşı peyvəndlər artıq alınmış, ölkəmizə gətirilmiş və yanvar ayının 18-dən vaksinasiya prosesinə başlanılmışdır. Bu günədək 459 min nəfərə yaxın əhali vaksinasiya olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Cənubi Qafqazda vaksinasiyaya başlamış birinci ölkə olmuşdur. Ümid edirik ki, vaksinasiya prosesinə start verilməsi xəstəliyin miqyasının azalmasında həlledici rol oynayacaq.

Pandemiyanın iqtisadiyyata mənfi təsirinin azaldılması məqsədilə cənab Prezidentin tapşırığına uyğun olaraq Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı hazırlanaraq təsdiq edilmişdir. Planın icrası istiqamətində hökumət tərəfindən qısa müddət ərzində büdcə vəsaitləri səfərbər edilərək maliyyə təminatı yaradılmışdır."

Baş nazir qeyd edib ki, 2020-ci ildə pandemiyanın təsirlərinin azaldılması üçün sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi üçün 461 milyon manat, sərnişindaşıma fəaliyyəti göstərən nəqliyyat sektorunun dəstəklənməsi üçün 277 milyon manat, güzəştli ipoteka kreditləri üzrə ayrılan vəsaitin artırılması üçün 90 milyon manat yönəldilmiş, 115 milyon manat həcmində vergi güzəştləri təqdim edilmişdir. COVID-19 pandemiyası dövründə dövlətin "Məşğulluq və sosial rifah"a dəstək tədbirləri ölkə əhalisinin 4 milyon 800 min nəfərini əhatə etmişdir. 600 min işsiz, o cümlədən xüsusi karantin rejimi dövründə gəlirini itirmiş şəxslərə yaşayış minimumu həcmində 190 manat birdəfəlik ödəmənin verilməsi təmin edilmiş və bu məqsəd üçün ümumilikdə 450 milyon manat vəsait xərclənmişdir. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqının ödənməsi məqsədilə dövlət büdcəsindən 27 milyon manata yaxın vəsait xərclənmişdir. Həmçinin özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilmiş və 2020-ci il ərzində 12 200 işsiz və işaxtaran aztəminatlı şəxsi əhatə etmişdir. Ümumilikdə məşğulluq və sosial rifaha dəstək bölmə-

# Milli Məclisdə Nazirlər Kabinetinin hesabatı dinlənilib

si üzrə 610 milyon manat vəsait xərclənmişdir.

Bütövlükdə isə, pandemiyanın milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci ilin dövlət büdcəsi və digər mənbələr hesabına iqtisadiyyata toplam olaraq təxminən 2,5 milyard manat həcmində dəstək göstərilmişdir.

Ötən il bütün sosial ödənişlər vaxtında və tam şəkildə həyata keçirilmişdir. Aparılan islahatlar nəticəsində Azərbaycanda orta pensiyanın məbləği təxminən 300 manata, yaşa görə pensiyanın orta məbləği isə 330 manata çatmışdır. Pensiyaların orta aylıq məbləği 13 faizdən çox artmışdır. Ünvanlı dövlət sosial yardım mexanizminin də əhatə dairəsi genişləndirilmişdir. 2020-ci ildə 77 min ailənin 322 min üzvünə 216 milyon manat ünvanlı yardım ödənilmişdir. Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 240 manat təşkil etmişdir. Şəhid ailələri, həmçinin müharibə əlilləri və onların ailə üzvləri cənab Prezidentin və Birinci vitse-prezidentin daim xüsusi diqqət və qayğısı ilə əhatə olunublar. Şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət başçısı tərəfindən Prezident təqaüdlərinin aylıq məbləğinin artırılması ilə bağlı müvafiq fərmanlar imzalanmışdır. 44 günlük Vətən müharibəsində şəhid olmuş 2881 nəfərin bu günədək 2695-nin ailələrinə, xəsarət almış və əlil olmuş hərbi qulluqçulara bütövlükdə 44 milyon manatdan çox sığorta ödənişləri verilmişdir. Bu istiqamətdə tapşırıqların icrası hökumətin gündəlik nəzarətindədir. Ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralıların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondu yaradılmışdır.

“2020-ci ildə institusional sahədə həyata keçirilən islahatlar davam etmişdir. Cənab Prezidentin qətiyyəti və siyasi iradəsi ilə həyata keçirilən antikorrupsiya tədbirləri ardıcıl şəkildə aparılır və bütün dövlət qurumlarını əhatə etməkdədir. Hökumətə təqdim edilən təkliflərin hər birində antikorrupsiya mexanizmlərinin nəzərdə tutulması, sui-istifadə hallarına yol verilməməsi mərkəzi icra hakimiyyəti orqanları qarşısında müəyyən edilən əsas tələblərdən biridir.

Ölkəmizdə dövlət şirkətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların korporativ idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, maliyyə sağlamlığının və dayanıqlılığının təmin edilməsi məqsədilə Prezident tərəfindən “Azərbaycan İnvestisiya Holdinqi” publik hüquqi şəxs yaradılmışdır. Holdinqin Nizamnaməsi təsdiq edilmiş, Müşahidə Şurası və İdarə Heyəti formalaşdırılmışdır. 22 iri dövlət müəssisəsinin mərhələli şəkildə Holdinqin idarəetməsinə verilməsi planlaşdırılır və bu günədək artıq 8 dövlət şirkəti Holdinqin idarəetməsinə verilmişdir.

Milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək, postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən müvafiq strategiyanın formalaşdırılması məqsədilə cənab Prezidentin Fərmanı ilə Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılmış və onun tərkibi təsdiq edilmişdir.

İcbari tibbi sığorta sisteminin qurulması institusional islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq 2020-ci il 1 yanvar tarixindən etibarən icbari tibbi sığortanın ilkin mərhələdə Naxçıvan Muxtar Respublikasında və 23 inzibati ərazi vahidində tətbiqinə başlanılmışdır. Bu proses ölkənin digər 36 şəhər və rayonunu əhatə etməklə 2021-ci ildə də mərhələli olaraq davam etdiriləcək.”-deyə Baş nazir qeyd edib.

Baş nazir diqqətə çatdırıb ki, Aqrar sektor hesabat ilində də prioritet sahə olaraq diqqət mərkəzində saxlanılmışdır. Ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 402,7 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çoxdur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilən yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiyanın verilməsinə başlanılıb:

“Dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması həm ölkəmizin ərzaq təhlükəsizliyinə, həm də bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəkdir. 2020-ci ildə kənd təsərrüfatının suvarma suyuna tələbatının ödənilməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər görülmüşdür. Belə ki, dövlət başçısının Sərəncamı ilə su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq Komissiya yaradılmış, 2020-2022-ci illəri əhatə edən Tədbirlər Planının icrasına başlanılmışdır. Operativ tədbirlərlə yanaşı, Nazirlər Kabinetinin Sərəncamı ilə ölkə üzrə ilk dəfə su təsərrüfatı balansı təsdiq edilmişdir. Cari ildə əsas vəzifələrdən biri kimi işğaldan azad edilmiş torpaqlar da daxil olmaqla ölkədə su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetiriləcəkdir. Azad edilmiş torpaqlarda ən müasir suvarma sistemləri yaradılacaqdır. Azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanları da nəzərdən keçiriləcəkdir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədəki nitqində cənab Prezident hökumətin qarşısında iqtisadi sahədə duran vəzifələri və prioritetləri dəqiq qeyd etmişdir. 2021-ci il və qarşıdakı dövr ərzində büdcə vəsaitlərindən səmərəli və qənaətli istifadə olunması, izafi xərclərin qarşısının alınması üçün maliyyə intizamı və nəzarət daha da gücləndiriləcəkdir. Dövlət satınalmalarının şəffaflığı və effektivliyinin təmin edilməsi istiqamətində işlər davam etdiriləcəkdir. Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı qətiyyətlə alınacaqdır. Özəl sektoru investisiya layihələrinin maliyyələşməsinə cəlbi və dövlət-özəl tərəfdaşlığının təşviqi davam etdiriləcək, dövlət investisiya layihələrinin səmərəliliyi yüksəldiləcəkdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı vəzifələrin icrası üçün 2021-ci ilin dövlət büdcəsində ilkin olaraq 2,2 milyard manat maliyyə təminatı yaradılmışdır. Təbii ki, bu istiqamətdə atılacaq ən birinci və önəmli addım azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsidir. ANAMA-nın yenidən təşkili bu istiqamətdə işlərin keyfiyyətcə yeni səviyyədə aparılması baxımından böyük əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, mənfur düşmən müharibə zamanı münaqişə zonasından uzaqda yerləşən kənd və şəhərlərimizə də zərbələr endirmişdir. Ötən il noyabrın 6-da cənab Prezident 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdır.

Sərəncama uyğun olaraq və onun icrasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyası tərəfindən zərər çəkmiş evlərin tikintisinin və bərpasının qısa müddət ərzində başa çatdırılması üçün tədbirlər görülməkdədir.

Bütün iqtisadi və nəqliyyat əlaqələrinin, kommunikasiyaların bərpa edilməsi regionda davamlı sülhün və inkişafın təmin edilməsi üçün olduqca vacibdir. Bu məsələ Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr tarixli bəyanatında təsbit edilmişdir. Azərbaycanı öz ayrılmaz hissəsi olan və uzun illər blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyət kəsb edir. Bu məsələlərin koordinasiyalı və operativ həlli məqsədilə üç ölkənin Baş nazir müavinlərinin rəhbərliyi ilə yaradılmış işçi qruplar artıq əməli fəaliyyətə başlamışlar.

Eyni zamanda, bildiyiniz kimi, Prezident İlham Əliyev Cənubi Qafqazda yeni formatda əməkdaşlıq platformasının yaradılması təşəbbüsünü irəli sürmüşdür. Əminik ki, bu platforma regional əməkdaşlığın inkişaf etdirilməsinə təkan verəcəkdir və bütün bölgə ölkələri üçün faydalı olacaqdır.”

X X X

Daha sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin sədri Tahir Mirkişili Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabat barədə fikirlərini bildirib. Komitə sədri diqqətə çatdırıb ki, 2020-ci il üçün iqtisadiyyatımızın əvvəlcədən planlaşdırılmış inkişaf proqnozları yüksək olub. 1-ci rübün iqtisadi göstəriciləri bu proqnozların reallığa yaxın olduğunu göstərib. 2-cü rübün başlanğıcından etibarən isə COVID-19 pandemiyasının dünyada, o cümlədən Azərbaycanda geniş yayılması şəraitində dövlət başçısı İlham Əliyevin göstərişi ilə vətəndaşların sağlamlığı əsas meyar kimi seçilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə həyata keçirilən tədbirlər epidemiyanın yayılma səviyyəsini kəskin azaltmaq və itkiləri minimuma endirməklə yanaşı, iqtisadiyyatımızın da gözlənilən itkilərinin azaldılması ilə nəticələnib.

İl ərzində dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırıb. Böhran dünya əmtəə qiymətlərinin enerji sektorunda 18.3 faiz ucuzlaşması, qeyri-enerji sektorunda 16.1 faiz bahalaşması, dünya ərzaq qiymətlərinin 6.5 faiz yüksəlməsi, neftin qiymətinin isə 33 faiz düşməsi ilə müşayiət olunub. Beləliklə, 2020-ci ildə Azərbaycan 3 cəbhədə - pandemiya ilə, qlobal böhran və işğalçı Ermənistan ilə mübarizə aparıb və bunun üçün kifayət qədər resursların səfərbər edib.

Koronavirus pandemiyası ilə mübarizə sahəsində təxirəsalınmaz tədbirlərin görülməsi üçün qısa bir müddətdə büdcə vəsaitləri səfərbər edilərək maliyyə təminatının yaradılması öz təsirini göstərib. Pandemiyanın yaratdığı problemlərə baxmayaraq, strateji layihələrin icrası, iqtisadi, sosial və institusional islahatların həyata keçirilməsi, ordu quruculuğu və hərbi potensialın gücləndirilməsi sahəsində görülən işlər müsbət qiymətləndirilməlidir.

Pandemiyaya qarşı iqtisadi tədbirlər paketi çərçivəsində fərdi sahibkarlara, muzdlu işçilərin əmək haqlarına göstərilən maliyyə dəstəyi, pandemiyanın təsir etdiyi sahələrdə çalışan sahibkarlara əldə etdikləri mənfəətin 75 faizi miqdarında güzəştlərin tətbiq edilməsi və digər çoxsaylı güzəştlər iqtisadi mühitə müsbət təsir göstərib. 2020-ci ildə bankları, qeyri-bank kredit təşkilatlarını, kapital və pul bazarlarını, sığorta sistemini əhatə edən maliyyə sabitliyinin qorunması siyasətini uğurlu hesab edirik.

Sonra hesabatla bağlı münasibətlərini bildirən Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Tahir Rzayev, Əhliman Əmiraslanov sənədi yüksək qiymətləndiriblər. Müzakirələr zamanı çıxış edən Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, sədr müavini Fəzail İbrahimli, deputatlardan Sevinc Fətəliyeva, İlham Məmmədov, Azay Quliyev, Vahid Əhmədov hesabat barədə fikirlərini açıqlayıblar.

Fasilədən sonra Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr davam etdirilib.

Çıxış edən deputatlar Şahin İsmayılov, Məzahir Əfəndiyev, Rəşad Mahmudov, Fazil Mustafa, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Kamal Cəfərov, Qənirə Paşayeva, Azər Badamov, Elnur Allahverdiyev, Nigar Arpadarai, Eldəniz Səlimov, Tahir Kərimli, Musa Qasımlı, Razi Nurullayev, Əli Məsimli, Sədaqət Vəliyeva, Aqil Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, İsa Həbibbəyli, Rauf Əliyev, Hicran Hüseynova seçiciləri narahat edən məsələlər, işğaldan azad edilmiş torpaqlarımıza böyük qayıdışın təmin edilməsi, pandemiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, qarşıda dayanan vəzifələr barədə fikirlərini bildiriblər, 2020-ci ildə Nazirlər Kabinetinin fəaliyyətini yüksək qiymətləndiriblər.

Baş nazir Əli Əsədov deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildirdikdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsi “Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavininin və auditorlarının təyin edilməsi haqqında” qərar layihəsidir.

Sədr diqqətə çatdırıb ki, Milli Məclisin Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə və “Hesablama Palatası haqqında” qanunun 11.3-cü maddəsinə uyğun olaraq bu vəzifələrə təyinatlar Milli Məclisin sədrinin təqdimatına əsasən Milli Məclis tərəfindən həyata keçirilir. Milli Məclisin sədri Sahibə Qafarova Nəsir Sadıqovun Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini vəzifəsinə, Cavid Bayramovun, Hilal Hüseynovun və Vəfa Mütəllimovanın isə Hesablama Palatasının auditorları vəzifələrinə namizədliklərini irəli sürüb. Bildirib ki, irəli sürülən namizədliklərə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında da baxılıb və müsbət rəy verilib. Sədr bu namizədlərin təyin ediləcəkləri vəzifələri uğurla icra edəcəklərinə əminliyini ifadə edib. Sonra qərar layihəsi səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclisin iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

# Bakının cənub girişində yaşıllıq salındı

**Novruz bayramı qabağı Torpaq çərşənbəsi günündə Bakı şəhərinin əsas girişi olan Yeni Salyan şossesinin kənarında, Jurnalist şəhərciyinin yanında 400-dək ağac əkilib. Ərazidə təşkil olunan ağacəkmə kampaniyasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçiləri, həmçinin Jurnalist şəhərciyindəki binalarda yaşayan sakinlər iştirak edib.**

Əkilən ağaclar arasında şam və küknar sortları, nar, zeytun, badam, ərik, yapon əzgili kimi yerli iqlim şəraitinə və torpağa uyğun tinglərə üstünlük verilib. Əkilən ağaclara peyin verilib, tinglər küləyə qarşı dirəklərlə bərkidilib.

Ağac əkilməsi kampaniyasında MEDİA rəhbəri Əhməd İsmayılov və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də iştirak ediblər və ərazidə ağac əkiblər.

Tədbirdə iştirak edən jurnalistlərə bayram səməni səbəti hədiyyə edilib. Eyni zamanda, öz bağ sahələrində ağac əkmək üçün müraciət edən media nümayəndələrinə hədiyyə olaraq əlavə meyvə tingləri paylanılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimovanın qəzetimizə verdiyi məlumata görə, ərazidə yaşıllaşdırma işləri mütamadi davam etdiriləcək, süni suvarma sistemi quraşdırılacaq, ağacların qurumamasına nəzarət ediləcək.

Qeyd edək ki, paytaxtın mərkəzinə əsas giriş yolu olan Yeni Salyan şossesinin ətrafı (Bibiheybət məscidi ilə Su İdmanı Sarayının arası) çılpaq və boz çöllükdən ibarətdir. Burada yolun dəniz tərəfi köhnə yararsız neft buruqları və köhnə tikililərlə doludur, ərazi isə bərk gilli torpaqdan ibarətdir. Şəhərimizə girişdəki bu cansıxıcı mənzərə nəticəsində paytaxta daxil olanlarda ilk təəssürat çox pis formalaşır.

Dəfələrlə burada yaşıllıq və ya park salmaq barədə təkliflər irəli sürsək də, ərazinin sahibi olan ARDNŞ tərəfindən heç bir tədbir görülmür. Yolun əks tərəfində isə bir neçə ildir ETSN tərəfindən yaşıllıq salınır.

Bu ərazinin yaşıllaşdırılması şəhərimizə daxil olan qonaqlarda ilk təəssüratın müsbət formalaşmasına təsir edərdi. Bundan başqa, buradakı pis ekoloji şəraitin sağlamlaşdırılması ərazidə yaşayan sakinlər üçün də faydalı olardı. Ümidvarıq ki, Dövlət Net Şirkəti də həmin ərazinin yaşıllaşdırılması üçün işlərə başlayacaq.

**Elçin**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*















# Ölkələrin Novruz bayramını qeyd etmə şəkli...



**Novruz bayramı keçmiş zamanlardan ta bu günümüzə qədər qeyd olunmaqdadır. Novruz bayramı özəlliklə türk və fars dillərində danışan xalqların arasında geniş yayılıb. Novruz sözü “nev və ruz” sözlərindən yaranıb. Yeni gün və yeni il mənasını bildirir. Novruzun başlanğıc tarixi Miladi təqvimə görə martın iyirmi biridir. Novruz sadəcə yenidən doğulan təbiət deyil. İnsan da ruhən özünü təmizləyir, beləliklə, fikirlər və duyğular da yenilənir.**

Novruz bayramı Əfqanıstanda, Azərbaycanda, Hindistanda, İraqda, İranda, Qazaxıstanda, Pakistanda, Qırğızıstanda, Özbəkistanda, Tacikistanda, Türkmənistanda və Türkiyədə qeyd edilir. Lakin bu bayram bəzi dövlətlərdə rəsmi bayram kimi, bəzi dövlətlərdə isə qismən qeyd edilir.

2009-cu ildə Novruz bayramı Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Özbəkistan və Türkiyədən birgə müraciətlə Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısında qeydiyyata alınıb.

2009-cu ildə Novruzun UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə nümayəndəliklərinin siyahısına daxil edilməsi ilə müxtəlif dillərdə danışan, müxtəlif dinlərə inanan və müxtəlif millətlərdən gələn icmalar arasında mədəniyyətlərarası dialoq, hörmət və anlaşma mühitinin formalaşmasına çox müsbət töhfə verib.



Bütün ölkələrin Novruzu qeyd etməsi adət-ənənələrinə və keçirilmə formasına görə fərqlənir. Türkmənistanda Milli Bahar bayramına görə 2 gün tətil edilir. Novruz bayramı çərçivəsində ölkənin dörd bir yerində bayram proqramları keçirilir. Güləş müsabiqələri qurulur. Güləşçilər, kəndirbazlar öz məharətlərini əks etdirirlər. Bundan başqa müxtəlif idman oyunları keçirilir. Novruz üçün “Türkmən çörəyi”, “Türkmən petiri”, “Külçə”, “Yağlı börək” kimi yeməkləri hazırlayan türkmənlər hesab edirlər ki, nə qədər çox yemək hazırlasalar yeni il bir o qədər məhsuldar və xeyirli olacaq. Bundan başqa Novruzda “səməni” şirniyyatının hazırlanmasının da türkmənlər üçün çox mühüm rolu var. Buğda unu, su, şəkər tozundan hazırlanır və türkmən adətlərinə görə bayram sabahı yaxınlara hədiyyə olunur.



Novruz bayramı qədim vaxtlardan bu günə qədər İran xalqı arasında təntənəli qeyd olunur və İranın ən önəmli günlərindən biridir. İranın məşhur alimi Əbu Reyhan Biruni əsərlərində Novruz bayramından söz açıb və Novruzu belə ifadə edib: “Novruz Ferverdin (baharın ilk ayı, baharı müjdəliyən mənasında İran mənşəli söz) ayının ilk günü və yeni ilin başlanğıcıdır. Keçmiş zamanlardan biri İran mədəniyyətinin bir parçası olan bu mərasim təbiətdən alınan maddi-mənəvi ehtiyacların bir parçası kimi tarix boyunca davam edib və davam edəcək.

İran xalqı Novruzun son çərşənbəsini “çərşənbə suri”, yəni ilin son günü adlandırır. Bu günü iranlılar tonqal qalayırlar və onların inanclarına görə Şeytanın yaratdığı xəstəlik, pislik və kirlilik təmizlənir.

“Həft Sin” süfrəsi yəni faydalı yeddi nemət süfrəyə qoyulur:: iydə, tərəvəzlər, səməni, sarımsaq, alma, sumaq və sirkənin süfrəyə qoyulması bərəkəti və uğuru gətirdiyinə inanılır. Sufrədə olan hər bir nemət bir simvolu təmsil edir.

Özbəkistanda Novruz süfrəsi üçün “Nişala” hazırlayırlar. Nişala şəkərdən bişirilir. Özbəkistanda dəyişik adətlərdən biri də budur ki, insanlar asimandan yağış gözləyir. Özlərini qocaman qadın Sus xatının şəklinə tutub deyirlər: “Sus xatın, Susma xatın, yağmur yağdır”.

Novruzda ağsaqqallar öküzlərin buynuzunu yağlar ki, yeni il bərəkətli olsun.

Bütün bayram günlərində olduğu kimi, Novruzda da təmizlik xüsusi əhəmiyyətə malikdir. Novruzdan əvvəl evlərdə və küçələrdə ümumi təmizlik işləri aparılır. Bayram zamanı insanlar təmiz və ya yeni paltarlar geyinməyə fikir verir. Novruz bayramında meydanlar rəngarəng bəzədilir, rəngli paltarların geyilməsi, müxtəlif rəngli yumurtaların rənglənməsi, insanların böyük bir tonqal ətrafında toplanması və tonqalın üzərindən tullanması Novruz bayramının xüsusiyyətlərindəndir. Novruz bayramı zamanı qışın yola salınması və baharın qarşılanması ilə bağlı müxtəlif oyunlar göstərilir. Novruzdakı adətlərdən biri də qulaq falına çıxaraq gələcəkdə reallaşdırmaq istədiklərinin həyata keçibkeçməməsini sınamaqdır.

***Qönçə Quliyeva,***
***Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tələbəsi***

# YAP Samux rayon təşkilatının nümayəndələri şəhid ailələrini ziyarət ediblər



Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hörmət və ehtiramla yad edilməsi məqsədilə YAP Samux rayon təşkilatında silsilə tədbirlər keçirilir. 16 Mart 2021-ci il tarixində Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının nümayəndələri “Şəhid ailələrinə qayğı” aksiyası çərçivəsində rayonun müxtəlif kənd, qəsəbələrində yaşayan şəhid ailələrini və eləcə də Samux rayonunda məskunlaşmış Kəlbəcərdən məcburi köçkün düşmüş daha bir şəhid ailəsini də ziyarət ediblər, onlara bayram sovqatları paylayıblar.

Görüşdə iştirak edən YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanıb. Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğu bildirib. Görüşdə vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların qayğı ilə əhatə olunması təşkil edir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Şəhid ailələri dövlətimizin göstərdiyi hərtərəfli diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***İLHAM***



## YAP Masallı rayon təşkilatının nümayəndələri şəhid ailələrini ziyarət ediblər

***Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı 44 günlük Vətən müharibəsi zamanı şəhid olmuş hərbçilərimizin ailələrini mütəmadi şəkildə ziyarət edirlər. Rayonun Ərkivan, Mahmudavar, Qarğalıq, Viləş, Hişkədərə kəndləri və Masallı şəhərində keçirilən görüşlərdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, ərazi ilk partiya təşkilat sədrləri, Gənclər Birliyi və YAP fəalları iştirak ediblər.***

Görüş zamanı Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin ailə üzvlərinə yüksək hörmət və ehtiram ifadə olunub. Vurğulanıb ki, Azərbaycan xalqı qəhrəman övladlarının əziz xatirəsini əbədi yaşadacaq. Qəhrəman şəhidlərimizin valideynləri və ailə üzvləri dövlətin bütün strukturları və cəmiyyət üzvləri tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə təşəkkür ediblər, Vətənin adını ucaldan və xalqımıza misilsiz qələbə sevincini bəxş edən övladları ilə fəxr etdiklərini bildiriblər.

***Rəfiqə***

# ABŞ mətbuatında Novruz bayramından bəhs edilib

**ABŞ-ın Minnesota ştatında fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin rəhbəri Günel Rallisin təşəbbüsü ilə ölkənin “Sun Thisweek” nəşrində Novruz bayramına və soydaşlarımızın gördüyü işlərə həsr edilmiş məqalə dərc olunub.**




SİA-nın xəbərinə görə, məqalədə bildirilib ki, martın 20-də Azərbaycanda və dünyada, eləcə də ABŞ-ın qardaşlaşmış şəhərlərində Novruz bayramı qeyd ediləcək. Onların arasında 1500 minnesotalı da olacaq. Bu il azərbaycanlıların Novruz bayramını pandemiya qaydalarına uyğun şəkildə keçirəcəkləri nəzərə çatdırılıb.

“ABŞ-dakı Yeni il kimi Novruz bayramı da dinlə bağlı deyil”, - deyə G.Rallis vurğulayıb.

Bildirilib ki, bu il Azərbaycanda Novruzun keçirilməsi başqa məna kəsb edəcək, çünki ötən il ölkəmiz 30 illik müddətdən sonra Ermənistan tərəfdən işğal olunmuş torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün bərpa olunması uğrunda aparılan Vətən müharibəsində qələbə qazanıb.

Məqalədə Minnesota ştatının Tvins şəhərində münaqişə ilə əlaqədar “Qarabağ Azərbaycandır!”, “Xocalıya ədalət” şüarlı lövhələrin quraşdırıldığı, Minnesotada ilk dəfə bu il 26 fevral tarixinin Azərbaycan Günü elan edildiyi, azərbaycanlıların ABŞ-a mühacirət tarixi, təbii ehtiyatlarla zəngin Azərbaycanın multikultural dəyərlərə sadiq olduğu, qonaqpərvərliyi və sair barədə geniş məlumat verilib.

Məqaləni daha ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:

https://www.hometownsource.com/sun_thisweek/community/burnsville/happy-novruz-azerbaijanis-to-celebrate-the-new-year/article_cf557c3a-82aa-11eb-bf29-37b6a8407f88.html

***Gülyana***

# 1995-ci ilin mart hadisələrindən 26 il ötür

**1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Hərc-mərclikdən, özbaşınalıqdan qurtulan Azərbaycanı yenidən uçuruma sürükləməyə cəhd göstərilirdi. 1995-ci ilin mart hadisələri. Bu gün həmin tarixdən 26 il ötür. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.**

Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ulu Öndər Heydər Əliyevin dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirmiş, Azərbaycan həqiqətlərini, dövlətin mövqeyini dünyaya çatdırmış, bununla da, ölkəmizə diqqət və maraq güclənmişdir. Azərbaycanın siyasi-iqtisadi əlaqələri genişlənmiş, mühüm müqavilə və sazişlər imzalanmışdır. Qısa bir zamanda, Ulu Öndərin müdrik siyasəti nətcəsində, ölkədə ictimai-siyasi sabitlik yaradılmış və qanunçuluğun bərqərar edilməsi istiqamətində ciddi addımlar atılmışdır.

Belə ağır zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir.

Azərbaycanda dövlət çevrilişinə cəhd mart hadisələri, 1995-ci ilin mart ayının 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar nöqtəsində - Qazaxda və Ağstafada başladı.



Həmin gün "OMON"-un Ağstafa və Qazax rayonunda yerləşən bölməsi tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi. Hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verdi. Məlum olduğu kimi, qanlı döyüşlərdən sonra Xüsusi Təyinatlılar qalib gəldi və dövlət əhəmiyyətli binalar ələ keçirildi. Mart ayının 15-də Azərbaycan Ordusunun bölmələri tərəfindən qiyam yatırıldı.

16-17 mart tarixində isə Xüsusi Təyinatlı Polis Dəstəsinin komandiri polkovnik Rövşən Cavadovun rəhbərliyi ilə Bakıda çevrilişə cəhd göstərmək istəyirlər. Hələ martın 14-də daxili işlər naziri "OMON"-un buraxılması və onun üzvlərinin 3 gün ərzində silahı təhvil verməsi barədə əmr imzalamışdı. Əmrə görə, silahı könüllü təhvil verənlər törətdikləri əməllərə görə cəzalandırılmayacaq və DİN sistemində müvafiq işlə təmin ediləcəkdilər. Bundan 2 gün sonra, yəni silahlı qarşıdurma ərəfəsində Ulu Öndər Heydər Əliyev "OMON"-çuları bağışlanmaq imkanı yaradan xüsusi Fərman imzalayır. Lakin XTPD-nin başçısı Rövşən Cavadov Xətai rayonunun o vaxtkı prokuroru, qardaşı Mahir Cavadovla birlikdə qeyri-qanuni silahlı dəstələri ilə dövlət başçısı qarşısında müəyyən şərtlər qoydular.

Onu da bildirək ki, Ümummilli Liderimiz Heydər Əliyev 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla həmrəy olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdini pisləyərək, qeyri-qanuni silahlı qruplaşmalara getməmələri, qanunsuz əməllərindən əl çəkmələri barədə dəfələrlə xəbərdarlıq etmişdi, onları əfv edəcəyini bildirmişdi. Hətta Cavadov qardaşlarının atası Bəxtiyar Cavadovla da söhbət aparmış, ona oğlanlarını vətəndaş müharibəsi və silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etmişdi. Bütün mümkün vasitələrdən istifadə edilməsi müsbət nəticə verməmişdir. Rövşən Cavadov açıq-aşkar dövlət çevrilişi etmək üçün hazırlığı genişləndirmiş, müxtəlif cinayət qrupları ilə, adamlarla, cürbəcür siyasətbazlarla danışıqlar aparmışdır.Dövlət çevrilişinə cəhd edən qeyri-qanuni silahlı birləşmələrin rəhbəri R.Cavadov və onun ətrafı hakimiyyəti silah gücünə, qeyri-konstitusion yolla ələ keçirməkdə tam israrlı idi. Onlar ağsaqqalları, ziyalıları, hətta yaşlı ataların da dinləmədilər. R.Cavadovun böyük iddiası vardı: dövlət başçısı olmaq. Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı. Xalq kütlələri bütün bu hoqqabazlıqlara, xəyanətkar və cinayətkar əməllərə son qoyulmasını tələb edirdi. R.Cavadovun adamlarının, eyni zamanda, proseslərdən faydalanmaq arzusuna düşən dağıdıcı müxalifət partiyalarının nümayəndələrinin xalq arasında apardığı təbliğat işləri isə, heç bir nəticə vermirdi. Əksinə, bələləri ictimaiyyətin qınağına tuş gəlir və ağır ifadələrlə təhqir olunmaqdan belə yan keçə bilmirdilər.

1995-ci il martın 16-dan 17-nə keçən gecə isə paytaxtın 8-ci kilometr qəsəbəsindəki "OMON"-çuların qərargahı yaxınlığında başlanan atışmada dünənədək cəbhə bölgəsində, erməni təcavüzkarları ilə savaşda səngər yoldaşı olmuş döyüşçülər üz-üzə dayandılar. Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal etdiyi bir vaxtda, Azərbaycanın paytaxtında bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçürmək üçün dövlətçiliyimizə qəsd edirdi. Onların hakimiyyət hərisliyi nəticəsində, qardaş qanı töküldü. Cavadov qardaşlarının hakimiyyəti qeyri-konstitusion yolla ələ keçirmək cəhdləri 22 hərbçi, 7 mülki şəxs, 1 polis və 8 XTPD əməkdaşının ölümünə səbəb olmuşdu. Hadisə nəticəsində, 105 nəfər yaralanmışdı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etmişdi.Törədilən dövlət cinayətləri Azərbaycana müəyyən zərbələr vursa da, qan tökülsə də, müstəqil Azərbaycan dövlətçiliyini bir daha sınaqdan çıxardı. Onun möhkəm, qüdrətli olduğunu göstərdi, qanunsuz zor işlətməyin mənasızlığını sübut etdi. Bütün bunlar Azərbaycanın demokratik əsaslarının möhkəmliyini, konstitusiya və qanunlardan kənar fəaliyyətin yolverilməzliyini nümayiş etdirdi.

Ulu Öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörən siyasəti və qətiyyəti müstəqilliyimizə, həmçinin, dövlət çevrilişinə qəsdin qarşısını aldı. Ulu Öndər Heydər Əliyevin dövlət çevrilişlərinin qarşısını qətiyyətlə alması Azərbaycan xalqının sabaha, gələcəyə ümidini daha da artırdı. Ulu Öndər Heydər Əliyev düşmənlərimiz tərfindən təşkil olunmuş dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi. Bu hadisələrdən keçən 26 ildə Azərbaycan müstəqil dövlət kimi daha da inkişaf etdi, əlaqələri genişləndi və mövqeləri möhkəmləndi.

*Zümrüd BAYRAMOVA*

# Dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olan Gültəkin Hacıbəyli

## Yalan, qəddarlıq, satqınlıq, nifrət, ikiüzlülük - rəzil qadının əsl "siması"

**Yalan, qəddarlıq, satqınlıq, nifrət, ikiüzlülük - Gültəkin Hacıbəylinin əsl "simasıdır". O Gültəkin Hacıbəyli ki, dünənə kimi deputat olduğu zamanlarda onun apardığı yalnız bir şeyi - Azərbaycanda mütləq demokratiyanın hökm sürdüyünü, insan hüquqlarının azadlığını, heç bir siyasi məhbusun olmadığını və sovet şinelindən qopmuş bu fenomenal ərazinin - yeni demokratiya beşiyi olmasını sübut etmək üçün təkcə doğma Goranboy ərazisində deyil, onun üçün yad olan Strasburqda vuruşurdu.**



İndi hər şeyi, hər kəsi əzməyə səy göstərən, ölkəmizdə olan uğurlu nailiyyətləri və qələbələri sosial şəbəkələrdən böhtanlar, iftiralar deməklə, özünün "ədalətin müdafiəçisi" sayan rəzil qadın G.Hacıbəyli satqınçılıq "simvolu" olan AXCP sədri Əli Kərimlinin "şinelinə" elə girib ki, hətta yaddaşsızlığı gəlib çıxıb.

10 il layiq olmadığı "yüksəkliyə" qalxan Gültəkin Hacıbəyli artıq adi insanlara və onların əzablarına diqqət etmək vərdişini itirib. "Bəyli" olmuş Hacıyeva, ziyalı və ləyaqətli insanların üzərində əsl divan təşkil edib. Onun əməllərinin qurbanı tək şəhid ailələri, müharibə veteranları, hətta əməllərinin qurbanı onun doğma dayısı - Goranboyda yaşayan yaşlı İdris kişi olub ki, o, onun "Emil" MMC müəssisəsini əlindən alıb. Təkcə bu deyil! O, ona məxsus gips karyerini əlindən alıb. Doğma dayını çörəksiz qoymaq! Bunun üçün daş ürəyə malik olmaq lazımdır. Əvvəllər Goranboy rayonunda olarkən rayon camaatının "Gültəkin Hacıbəyli məmurdan tutmuş adi süpürgəçiyə qədər bezdirib" sözlərini eşidəndə təəccüb edirdim. Rayon camaatı bildirirdi ki, o həmişə öz seçki dairəsinin bütün dövlət məmurlarına vergi qoymağa vaxt tapırdı və rayon rəhbərinin yanına gəlir, ondan 5 min tələb edirdi. Ancaq Milli Məclisdə o "zülm edilmiş azərbaycanlıların" sosial hüquqları haqqında danışırdı. Bu danışıqla da o nə az nə çox - 40 hektar torpaq təsərrüfat sahəsinə malik oldu! Şərəf haqqında danışan G.Hacıyeva 2005-ci il seçkilərinə - "Mən Goranboyu layiqincə təmsil edəcəyəm!", - deyən deputat ləyaqəti olmadan, yəni şəxsi tarlaları ilə, Mehdiabad qəsəbəsində, paytaxtın mərkəzində yeni mənzillər əldə etməklə, Hacıyevadan Hacıbəyliyə çevrilən zəngin regionu təmsil etməyə başladı.

### Gültəkin Hacıbəylinin "maskaları"...

Üçüncü dəfə Goranboydan deputatlığa seçilə bilmədikdə "Yorulmuşam, siyasətdən gedirəm" dedi. Amma Hacıbəyli çoxlarının gözlədiyi kimi, siyasətdən getmədi. O özünü elmə də həsr etmədi - onun elmlə işi yoxdur, çünki elm narsisizm və eqosentrizmi inkar edir, insan özünü bu işə tamamilə həsr etməlidir. O siyasətə qayıtdı, amma əvvəl "bəyli" sonluğunu atmaqla "özünə layiq siyasətə" qayıtdı. Əgər əvvəllər o öz prezidenti ilə fəxr edirdisə, bu gün o qərb liderləri ilə fəxr edir; sitatları da Qandidəndir. Əgər əvvəl unikal Azərbaycan modelindən danışırdısa, bu gün fədakarlıqla xidmət etdiyi hakimiyyəti ittiham edir. Əgər əvvəl onun bəyanatları - ölkəmizdə siyasi dustaq yoxdur - sovet ruhunda olurdusa, bu gün "siyasi dustaqların" əzabları onu yumşaldır. Bax, budur Gültəkinin maskası. Bu gün bu min bir maskası olan Gültəkin sosial şəbəkələrdən bu qalib dövləti, hakimiyyəti, xalqı, ordumuzu, şəhidlərimizi hədələməsi bir daha G.Hacıbəylinin nə qədər mənəviyyatsız olduğunu göstərir.

### Əvvəl şəxsiyyət, sonra siyasət...

Belə bir deyim var: "Əslində, siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Bu gün Azərbaycana nifrət edən G.Hacıbəyli kimilərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa bir şey deyil.

### Yazıqlar sənə, rəzil qadın- Gültəkin Hacıbəyli...

Ona görə ki, bütün dünya bir daha şahid oldu ki, bu gün həmrəylikdən yoğrulan "dəmir yumruq" siyasəti nəticəsində 30 ilin həsrətinə 44 gün ərzində Qarabağ Azərbaycanımıza qovuşmağımız, 2021-ci ilə böyük qələbələrlə, zəfərlərlə qədəm qoymağımız məkrli niyyətli, xarici beynəlxalq təşkilatların nökərləri - Azərbaycanın uğurlarını, Vətən Müharibəsi zəfərini həzm edə bilməyənlər Paşinyan səviyyəsində irəli gedə bilməyənlər, erməni dəyirmanına su tökməklə abırsızlıqlarını nümayiş etdirən - G.Hacıbəyli, Əli Kərimli, Cəmil Həsənli...kimilər öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və kökü, mənəviyyatı erməni xisləti, erməni təxribatına qahmar çıxan Sevinc Osmanqızı, satqınlığını hər cür formada nümayiş etdirən Arif Məmmədov, Əli Kərimlinin nökəri olan Cəmil Həsənli, özünü "hüquq müdafiəçisi" hesab edən Vidadi İskəndərli və bu kimi məkrli niyyətlilər bilməlidirlər ki, radikal müxalifət və "beşinci kolon" deyilən erməni çörəyi yeyənlər tarixin arxivinə atıldıqları kimi də qalacaqlar. Çünki onlar reallıqda kimsəyə lazım deyillər, istifadə olunduqdan sonra kənara atılanlardır. Azərbaycan isə müstəqillik, demokratiya yolunu davam etdirərək, daha böyük uğurlar qazanacaq. Xankəndidə, Şuşada, Laçında, Qubadlıda, Ağdamda, Füzulidə, Hadrudda...dalğalanan bayrağımız dalğalanacaq! O bayrağa baxan xalq üçün radikal müxalifət deyilən bir "varlıq" isə çoxdan mövcud deyil! Çünki əsl həqiqət o bayraqda və onu oraya sancan vətənpərvərlərdədir!

*Rəfiqə HÜSEYNOVA*

# Xəyanətkar kimdir, erməni ailəsi, yoxsa dövləti?

***Müharibə hər zaman bir çox gizli məqamlara aydınlıq gətirib və torpaqlarımızın işğaldan azad olunması yolunda 44 günlük savaş da Ermənistan üçün, erməni cəmiyyəti üçün xarakterik olan xəyanətləri, xəyanətkarlıqları üzə çıxarıb və bu, hələ də davam edir. Hələ də erməni xalqı ölkə hakimiyyətinin yalanlarının üstünü açır, istər sonuncu müharibədən əvvəl, istər müharibə dönəmində, istərsə də müharibədən sonra hakimiyyət, dövlət tərəfindən aldadıldıqlarını, bununla da xəyanətlərə məruz qaldıqlarını nəinki dərk edirlər, bu barədə etiraz aksiyalarında da açıq-aşkar fikirlər səsləndirirlər. Bir sözlə, işğalçı ölkədə bitib-tükənməyən xəyanətlərin üstü hələ də açılmaqdadır və sanki xəyanət bu ölkənin elə yarandığı gündən alnına yazılıb, alın yazısıdır.***



Heç şübhəsiz ki, 44 günlük döyüşdə rüsvayçı məğlubiyyətə düçar olar Ermənistanın vətəndaşları bu rüsvayçılığı həzm edə bilmirlər və əslində, etirazların da kökündə məhz bu dayanır. Eləcə də ölkə vətəndaşları, siyasətçilər, ekspertlər yaxşı başa düşürlər ki, Ermənistan tərəfinin canlı qüvvə, hərbi texnika, silah-sursat itkisi, nəticədə isə, ümumiyyətlə, dövlət olaraq Ermənistanın itkisi hədsiz dərəcədə böyükdür və bu itkilər işğalçı ölkəni çökdürməkdədir. Bir tərəfdən də etirazlar elə xəyanətlərə görə edilir və işğalçılıq siyasətinə, qəsbkarlıq niyyətlərinə, terrorçuluq fəaliyyətinə görə, özgə torpaqlarında minlərlə gəncin ölümünə, on minlərlə gəncin şikəst olmasına rəvac verənlərin əməlləri həqiqətən də öz xalqına xəyanətdən ziyadə qiymətləndirilə də bilməz.

Məsələ burasındadır ki, Ermənistanda bitib-tükənməyən problemlərin, hətta bəlaların içərisində bir bəla da döyüşlərdə Ermənistan tərəfindən itkin düşənlərin cəsədlərinin, yaxud qalıqlarının tapılıb valideynlərinə qaytarılmasıdır. Dəfələrlə meydanlarda etiraz edən, övladının heç olmasa cəsədinin, ya da cəsədinin qalıqlarının tapılıb onlara təhvil verilməsini tələb edən valideynlərin narazılıqları mətbuat vasitəsi ilə, video, foto görüntülər vasitəsilə səyr etmişik. Erməni əsgərlərinin valideynlərinin narazılıqları anlaşılandır, çünki onların böyük bir qisminə hələ də ölən balalarının cəsədləri, yaxud qalıqları verilməyib. Hətta övladlarının cəsədləri tapılıb təhvil verilən valideynlərin bir çoxları cəsədlərin onların övladlarının olmadığı qənaətindədirlər. Əbəs yerə deyil ki, ölkədə DNT testi edilir və testin nəticələri ilə valideynlər bir növ "razı salınır", amma bir sıra faktlar təsdiq edir ki, bəzən valideynlər elə test ilə də aldadılır. Bir növ, bu rakursda da xəyanət hökm sürür Ermənistanda və erməni xalqı artıq bunun da fərqindədir.

### DNT testi xəyanəti ortaya qoydu

Ermənistanda DNT testi ilə aldadılma faktları, yaxud DNT testlərinin xəyanətləri ortaya qoyma faktları artmaqdadır. Təsadüfi deyil ki, döyüşlərdə iştirak etmək üçün Zəngilana yollanan, sonra mühasirədə olduqları bildirilən və hələ də itkin düşmüş sayılan hərbçilərin qohumları DNT testlərinin cavablarının saxtalaşdırılması barədə həyəcan təbili çalırlar. Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata görə, bir neçə həftə əvvəl itkin düşmüş oğlanlardan birinin anası 168.am xəbər portalına DNT testlərinin saxtalaşdırılması barədə konkret faktlar barədə danışıb. Bu gün həmin faktlara daha bir fakt da əlavə edilib və bu barədə hadisə şahidlərindən biri nəql edib.

"Öz itkin qardaşını axtaran iki qardaş onların qardaş olduğu bilinməyən bir xəstəxanada qan analizi veriblər. Qardaşlardan birinə, axtardığı itkin qardaşının qalıqlarının Zəngilanda, qardaşlardan digərinə isə, axtardığı itkin qardaşının qalıqlarının Cəbrayılda olduğu bildirilib. Bir adam ikiyə bölünübmü və bir əsgərin bir ayağı bir ərazidə, o biri ayağı 137 km məsafədə olan digər ərazidə ola bilərmi, sualı hər kəsi maraqlandırır və narahat edir", deyə bir hadisə şahidi bildirib.

Xatırladaq ki, itkin düşənlərin qohumları məsələni aydınlaşdırmaq üçün Milli Təhlükəsizlik Xidmətinin nümayəndələri ilə görüş tələb edirlər. Bəziləri ikinci bir ekspertiza tələb edirlər və hətta bir çoxları bu ekspertizanı xaricdə keçirmək niyyətindədirlər. Bəli, ola bilsin haqlıdırlar və onları bu zamana qədər bir-birinin ardınca aldatmaqda davam edən dövlətə, hakimiyyətə inanmırlar. Həqiqətən də vətəndaşları razı salmaq üçün bir insanın bir parçasını bir valideynə, digər parçasını başqa bir valideynə təhvil verəcək qədər xəyanətkarlıq Ermənistandan, onun hakimiyyətindən gözləniləndir. Heç şübhəsiz ki, belə faktlar bütün dünyada erməni simasızlığını tanıyan kəslərdə təəccüb belə doğurmaz. Yəni, göz görə-görə kimlərinsə balalarını başqalarının torpaqlarında qırğına verən, ölümünə rəvac verənlərin hər oyuna getməsi, onların övladlarının cəsədləri ilə də "iyun" oynaması təəccüblü deyil, onların simasızlığının təzahürüdür.

Müharibə kimin kim olduğunu göstərdi

Əlbəttə, islam əxlaqı, eləcə də milli ənənələrimiz vətən uğrunda nəinki canını fəda edən, hətta savaşan kəslərə xüsusi hörmət və ehtiram aşılayır və məhz Azərbaycanda istər bu əxlaqla, istərsə də mental düşüncəmizlə onlar "Şəhid" və "Qazi" adı ilə hörmətlə qarşılanır. Vətən torpaqlarının işğaldan azad olunması uğrunda həlak olanlar, yaralananlar nəinki 44 günlük savaşdan sonra, hətta elə döyüş zamanında, döyüş əməliyyatlarının getdiyi yerdə saxlanılmayıb, oradan götürülüb və bu müqəddəs ənənə bəzən döyüşən əsgərin özünün həyatının itigisi bahasına başa gəlib. Məsələ burasındadır ki, nə bu müqəddəs ənənəni, nə bu hörməti, nə də qəhrəmanlıq salnaməsini, mərdliyi Ermənistan tərəfinə şamil etmək mümkün deyil və hər gün ortaya çıxan faktlar bunu təsdiq edir. Təsdiq edir ki, yalnız xəyanət, hətta öz xalqına, vətəndaşına qarşı xəyanət belə bu ölkə üçün xarakterikdir.

Doğrudur, dövlət Ermənistan hakimiyyəti haqlı olaraq xəyanətdə ittiham olunur. Haqlı olaraq bildirilir ki, müharibəyə səbəb olan təxribatlarla Nikol Paşinyan və onun komandası vətəndaşlarını mənasız yerə qırğına sürüklədi və bu, özü də xalqa qarşı xəyanətdir. Hətta 44 günlük müharibə bitdikdən sonra da istər əsirlərə, istərsə də itkin düşənlərə qarşı laqeydlik Ermənistan hökumətinin növbəti xəyanəti kimi haqlı olaraq dəyərləndirilir. Bir tərəfdən də DNT testinin yanlış, aldadıcı cavabları ilə Ermənistan hökumətinin xəyanətləri dilə gətirilir və bu mənada da tələblər, ittihamlar haqlıdır. Əgər vətəndaş aldadılaraq, ona öz övladının yerinə başqa birisinin cəsədlərinin qalıqları verilirsə, bu da bir xəyanətdir. Amma bir məqam da sual olaraq ortaya çıxır ki, bəs DNT testi həqiqətən də doğru aparılıbsa və qeyd olunan faktdakı hal, yəni, qardaşlardan birinə qardaşının cəsədinin qalıqlarının Zəngilanda, digərinə Cəbrayılda olduğu bildirilirsə, bu, necə izah oluna bilər? Əgər həqiqətən də DNT testi doğru, düzgün aparılıbsa və aldadılma olmayıbsa, deməli, bu fakt daha başqa məqamlardan xəbər verir. Nəzərə alsaq ki, DNT testi mənsubiyyəti real olaraq sübut edir, deməli, bu fakt xəyanətin bəlkə də on illər bundan əvvəl edildiyini təsdiqləyir.

### Ermənilərin xəyanətkarlığı tarixi faktlarda

Hayların hələ qədimdən Anait adlandırdıqları ilahəyə ermənilərin indi də necə rəğbət bəslədiyi, müqəddəs saydığı, Anait adlı ilahənin də "kimliyi" müəmmalı, yaxud sirr deyil. Bu ilahənin bütün kişilərə eyni zamanda əks cins olaraq "xidmət" göstərdiyi və bu xidməti göstərənləri bir yerə topladığı barədə bütün dünya məlumatlıdır və bizim şər atmaq kimi bir niyyətimizin olmaması da bununla öz təsdiqini tapır. Yəni, digərləri üçün məhz xəyanət hesab olunan "xidmət" erməni cəmiyyətində ilahə səviyyəsində "dəyər" qazanırmış. Hətta, tarixi salnamələrdə qeyd olunur ki, ən mötəbər erməni ailələri Anait adlı ilahənin "məbəd"-indən olan qadınlarla ailə qurulmasını üstün məqam hesab edirmiş. Bir sözlə, xəyanət etməyə vərdiş edən qadınların ailələrə gəlin kimi qəbul olunması heç də qeyri-adi sayılmırmış. İndi hansısa erməni Qaregin Njde kimi birinin terrorist olması fonunda ona heykəl qoyulmasından utanmadığı kimi, heç Anaitə də heykəl qoyulsa nə utanmaz, nə də buna qarşı çıxmaz. Əksinə, bununla qürurlanardı, eyni ilə nümunə gətirdiyimiz analoji fakt kimi. Bəs əgər Anait adlı ilhələrinin dövründə DNT testi olsaydı, haylar da DNT testi etsəydilər bu zaman qarşılaşılacaq nəticə nə ola bilərdi? Ümumiyyətlə, xəyanəti qəbul edən birinin övladlarında DNT testi eyni mənsubiyyəti təsdiq edə bilərdimi? Əsla.

Bilirik ki, ermənilər öz maraqları naminə qadınlarını Rusiyalı yüksək rütbəli hərbçilərə də "təqdim ediblər" və buna rusiyalı tarixçilərin, səyyahların da əsərlərində, qeydlərində rast gəlinir. Yəni, zaman-zaman erməni qadınları üçün xəyanətin adi hala çevrilməsi faktlarda öz təsdiqini tapıb. Özü də belə "hədiyyəlik" erməni qadınları ermənilər arasında daha "layiqli" sayılırmış. Elə həmin o Rusiyalı yüksək rütbəli hərbçilərə "hədiyyə" edilən erməni əsilli qadınların da dünyaya gətirdikləri övladlarında əgər DNT testi aparılsaydı nəticə indi xəstəxanada fərqli nəticələrlə analoji olaraq, eyni ilə fərqli olmalı idi.

### Sədaqətə qiymət verməyən cəmiyyət üçün xəyanət hər zaman gözləniləndir

Şər atmaq, yaxud təhqir etmək niyyətində deyilik, amma təsəvvür edəndə ki, Ermənistan dövləti, mövcud hakimiyyət, onun səhiyyə orqanları DNT testin nəticələrinin doğruluğunu təsdiq edə bilər, adam şoka düşər. Yaxud elə hesab edək ki, DNT testindən sonra itkin düşən qardaşının cəsədinin qardaşlardan birinə Zəngilanda, digərinə Cəbrayılda tapıldığı barədə xəbər verdikdən sonra onlar xarici ölkədə DNT testi etdikdən sonra eyni şəkildə cavab verilsə, nəticə eyni olsa onlar hansı qənaətə gəlməlidirlər? Bu fakt ondan xəbər vermirmi ki, xəyanət elə onların ailələrində olub və özü də on illər bundan öncə?

Maraqlıdır, indi xəyanətkar kimdir, erməni ailəsi, yoxsa dövləti? Hər bir halda bunlardan hansısa, biri, yaxud digəri mütləq şəkildə xəyanətkardır. Amma heç şübhəsiz ki, xəyanət və xəyanətkarlıq var və bu, artıq qeyd olunan faktlarla öz təsdiqini tapır, isbatlanır. İstənilən halda Ermənistan üçün xarakterik olan xəyanət növbəti dəfə təzahür edir və belə bir cəmiyyət, hər zaman xəstə təxəyyül, yanlış yanaşma nümayiş etdirən, dəyərlərə, həqiqətə, nəhayət ki, sədaqətə qiymət verməyən cəmiyyət üçün xəyanət hər zaman gözləniləndir.

***İnam Hacıyev***



# Armen Sarkisyan da "şpion" çıxdı?

**Deyirəm, bu Paşinyana deyən gərək, sənə vacib idi "Qarabağ Ermənistandır" deyəsən? Hələ, utanmaz-utanmaz buna bir nöqtə də qoymaq istəyirdi. İndi budur, salmısan erməniləri zəlil günə. O gün də küçədə keçirilən sorğuda erməni əhlinin ölkədə qalan hissəsinin 25 faizi Ermənistanın sabahını qaranlıq gördüyünü bildirib.**

Paşinyan isə hələ də getmək barədə belə fikirləşmir. Əslində, burada biz ermənilərin də günahı çoxdur. Vazgen Manukyan nə qədər haylasa da, küçələrə 10-15 mindən artıq adam çıxara bilmir. Ancaq hər dəfə gələn mitinqdə 50, nə bilim 100 min ermənini Nikola qarşı ayağa qaldıracağını bildirir.

Amma o başa düşmür ki, indiki halda Paşinyan problem və ya faktora önəm verirsə, deməli bu müstəvidə biz ermənilərə böyük problemlər gözləyir. İndi bizim qəti addım atıb-atmamağımızla deyil ki... Ermənistanda təhlükəsizlik qüvvələrinin gündəlik və həftəlik yüksək ödənişlər müqabilində Paşinyanın maraqlarına necə xidmət etdiyini öznüz də görürsünüz.

Bundan əlavə, bizim Nikolu nə adla çağırıb- çağırmağımızdan asılı olmayaraq etiraf etməliyik ki, o, sadəcə hakimiyyətə gəlməyi bacaran bir populist deyil, həm də aydın bir proqramın həyata keçirilməsi ilə məşğul olanın biridir.

Yadınızdamı, o baş nazir olan kimi "Hərbi vəzifə və hərbi qulluqçuların statusu haqqında" qanuna dəyişiklik edilməsi təşəbbüsü ilə çıxış etdi. Həmin dəyişikliklər Baş Qərargah rəisinin istefası ehtimalını nəzərdə tuturdu. Paşinyan o vaxt artıq gec-tez ordunun müqaviməti ilə qarşılaşacağını bilirdi.

Əslində, burada gizli məqamlar da var. Belə ki, burada Paşinyanın təkcə hakimiyyətini genişləndirmək istəyi yox, həm də Ermənistan və ermənilərin həyati maraqları hesabına Rusiyanı bölgədən qovmağa hesablanıb. Unutmayaq ki, Rusiyanın Cənubi Qafqazdakı hərbi-siyasi varlığını azaltmaq, həm də Qərbin tapşırığıdır. Maraqlıdır ki, ermənilər Paşinyanın bu "proqrama" tək girişmədiyini, prezident Armen Sarkisyanın da ona kömək etdiyini bildirirlər.

...Əslində mənim də əvvəldən bu Armen Sarkisyandan gözüm su içmirdi...

***Ağasəf Babayev***

TƏRS BAXIŞ

# Osmanqızı-Kərimli savaşı: qalib yoxdur, yalnız məğlublar var!

*Yaxud, korrida davam edir, sonu isə bəllidir...*

**“Osmanqızı tv”nin sahibi Sevinc Osmanqızı və AXCP sədri Əli Kərimli arasında davam edən savaşın miqyası böyüdükcə, ortaya çıxan əsas fakt budur ki, həmin savaşda qalib yoxdur, hər iki tərəf məğlubdur, özü də Azərbaycan dövləti və xalqı qarşısında. Çünki hər iki tərəf yalnız Azərbaycan dövlətinin maraqlarına qarşı çıxan cinahlardırlar - biri xaricdən, ABŞ-dan, digəri isə Azərbaycan hüdudlarından.**




Ümumilikdə götürəndə isə sözügedən intriqa və insidentlərin hər birinin arxasında şəxsi maraqların dayanması reallığının mövcudluğu da sirr deyil. Təbii ki, kim daha çox qazandı, kim daha çox erməni lobbisinin təsirləri altında fəaliyyət göstərən xarici qurumlardan, habelə Soros dayısından pul qopardı tipli məsələlər də, sözün əsl mənasında, siyasi müxalifət daxilindəki korrida döyüşünə bənzəyir. Hər biri özünü meydana çıxan öküz qismində görür və kəllə-kəlləyə gələndə yenə də hər ikisinin buynuzları sınır. Belə deyək, matadorları da zəifdir ki, nəticəsi onlar üçün bu qədər acınacaqlı olur...

### Sevinc Osmanqızıya nə gəlmişdi ki, birdən-birə AXCP sədri Əli Kərimlini öz verlişindən necə deyərlər, “iti qovan kimi” qovsun?

Söz yox ki, belə savaşların təməli əsasən, yəni köklü olaraq “maddi gəlir” məsələsi üzərində cəmləşib. Amma bu gəlirlərin xalqın, dövlətin maraqları üzərindən sahiblənməsi heç bir mənəviyyata, ləyaqətə sığmayan faktorlardandır. Yoxsa ki, Sevinc Osmanqızıya nə gəlmişdi ki, birdən-birə AXCP sədri Əli Kərimlini öz verlişindən necə deyərlər, “iti qovan kimi” qovsun? Yəni onun dünənə qədər bəh-bəhlə tərifləyib göylərə qaldırdığı Əli Kərimli arasında başlanan bu savaşın hər keçən gün daha da şiddətləndiyini isə sosial şəbəkələri izləməklə görmək mümkündür. İndi də bu pul-para hərislərinin trolları düşüblər ortalığa və başlayıblar bir-birlərinin paxırlarını açmağa. AXCP sədri bir tərəfdən öz trolları vasitəsi ilə Sevinc Osmanqızı barədə kompromatlarını sosiallaşdırır, əks tərəf də Əli Kərimli barədə əlində olan kompromatları cavab atəşi kimi açmağa başlayır.

Misal üçün, Osmanqızı açıq şəkildə etiraf edir ki, onun Kərimlinin siyasi gedişləri, hətta siyasi mövqeyi ilə bağlı əvvəlki fikirlərində dəyişiklik baş verib. Necə deyərlər, dünən yatıb, bu gün durub və fikirləşib ki, cəbhəçi sədr indiyə qədər nə edibsə, hamısını səhv edib, hətta dəhşətli səhvlərə yol verib. Halbuki, bizlər AXCP sədrinin səhvlərini günaşırı olaraq ictimai rəyin diqqətinə çatdırmışıq, bu gün də çatdırmaqda davam edirik.

### Osmanqızı əmri Sorosdan alıb?

Lakin indi sual yaranır ki, əcəba Sevinc Osmanqızı niyə birdən-birə belə ayılıb və nə dərəcə dönüşünü dəyişib? Cavab bəsittir - Osmanqızı əmrini Sorosa bağlı fonddan alıb. Həmin fondun kiçik qurumları tapşırıq veriblər ki, AXCP sədri daha onların maraqlarına cavab vermir və bunun üçün bir neçə ildir keçirməyə cəhd göstərdiyi, uğursuzluqla nəticələnən icazəsiz küçə yürüşləri və s. məsələlər ortaya atılır. Təbii ki, Osmanqızı da bu əmrə riayət etməyə məcburdur, əsk-halda Əli aşından da olar, Vəli aşından da...

Əgər belə olmasaydı, AXCP sədrinin patoloji nifrət bəslədiyi şəxslər “Osmanqızı TV”yə onlayn da olsa, ayaq basa bilməzdilər. Fakt budur ki, Sevincə verilən tapşırıqlardan biri də “müxalifətdən yeni simaları kəşf etmək” əmridir. Nəticədə bu əmrdən qeydə gələn Əli Kərimli Sevinclə qanlı düşmənə çevrilib və tərəflər arasındakı düşmənlik o həddə çatıb ki, Osmanqızı nəinki üstüörtülü, elə açıq mənada da AXCP sədrinin heç bir gücə sahib olmadığını rahat şəkildə deyir, onu digər ölkələrdəki müxalifətlərlə müqayisə edir, yalnız sosial şəbəkələrdə boş-boş çərənləməkdə günahlandırır. Hər halda, faktlar yavaş-yavaş üzə çıxmağa başlayır və bu korridanın necə və nə cür başa çatacağını da elə indidən bəlli etmək çətin deyil...

***Rövşən RƏSULOV***

# Deyəsən, daha toy-zad olmayacaq...

**Əntiqə, bomba, daha nə bilim daha nə... Görünən isə budur ki, ötən gün Papa Françis tənqidlərə tabe olmayan məcburi və dəyişməz bir həqiqəti elan edib.**



Yəni, o, “günahdan nifrət edin, amma günahkarı sevin” kimi kilsə “kəlamı”na riayət etmək niyyətində olduğunu bəyan edib. Doğrudur, Papa Françis eyni cinsdən olan insanlar arasındakı “izdivacı” elə də təqdir etməsə də, amma bu həyat tərzindəki insanlara qarşı sevgi ilə davranmağa çağırış edib.

Bildirək ki, yerli mətbuat papanın bu fikirlərini elə də təqdir etmir. Çünki Avropanın aparıcı nəşrləri papanın bu qərarının azcinslilər tərəfindən elə də yaxşı qarşılanmayacağına əmindirlər. “Azcinsli birliklərin xeyir-duası qanuni hesab edilə bilməz”. Qeyd edək ki, Vatikanın əsas doktrina agentliyinin yaydığı məlumatda belə deyilib.

Maraqlıdır ki, çoxları bu qərarı mütərəqqi katoliklər üçün məğlubiyyət kimi dəyərləndirirlər. Çünki onlar agentliyin azcinslilərə münasibətdə daha müasir olacağına ümid edirdilər. Bundan əlavə, Qərbi Avropadakı bir çox ölkələr artıq eynicinsli nikahları qanuniləşdirib axı. Belə olan halda, Vatikanın azcinsliləri “günahsız” kimi qəbul etmək istəməməsi kilsənin özünə qarşı yönəlməzmi?

Xatırladaq ki, ötən il nümayiş etdirilən bir sənədli filmdə açıqlama verən Papa Françis, eynicinsli cütlüklər üçün sivil birlik qanunlarının tərəfdarı olduğunu demişdi. Ayə, belə olan halda, bəs, indi nə oldu?

...Belə görünür ki, bundan sonra Avropanın bəzi ölkələrində azcinslilərə öz toylarında oynamaq qismət olmayacaq.

***Ağasəf Babayev***




# “Nar” onlayn təhsil alanlar üçün “TƏHSİL+” internet paketinin müddətini uzadıb

“Nar” pandemiyanın davam etməsi ilə əlaqədar olaraq şagird, tələbə və müəllimlərin dərslərə onlayn qoşulması üçün təqdim etdiyi “TƏHSİL+” internet paketinin müddətini uzadıb. Aprelin sonuna qədər istənilən məkandan rahatlıqla “Microsoft Teams” və “Zoom” tətbiqlərindən heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən istifadə etmək mümkündür.

Qeyd edək ki, paket abunəçilərə hər iki tətbiqdən istifadə üçün sürət limiti olmayan 50GB təqdim edir. Paketin qiyməti 10 AZN təşkil edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya 777 nömrəsinə “T+” açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər. “TƏHSİL+” internet paketi haqqında ətraflı məlumatı “http://www.nar.az/tehsil-plus/” səhifəsindən əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 2007-ci il martın 21-də fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Əli Orucov: “Heç də bütün siyasi qüvvələr vətənpərvər ola bilməz”

“Azərbaycan qanunvericiliyində o cümlədən “Siyasi partiyalar haqqında qanunda” nəzərdə tutulur ki, siyasi partiyalar dövlət əleyhinə çağırışlar edə bilməz, iğtişaşlara səsləyə bilməzlər, millətlərarası, fərdlərarası nifrətə söykənən çağırışlar edə bilməzlər”. Bunu “Müxalifətin dağıdıcı qanadı xüsusilə də, “Milli Şura” və AXCP sosial şəbəkələrdə cəmiyyəti təhdid edən qarşıdurma və iğtişaşlara çağırış edən fikirlər səsləndirir və mövqe ortaya qoyurlar, bu siyasi partiyalar haqqında qanunun tələblərinin kobud şəkildə pozulması demək deyilmi?” sualını cavablandırarkən AMİP funksioneri Əli Orucov deyib.



Onun sözlərinə görə, bu cür çağırışlar varsa və bu cür çağırışlar edilirsə təbii ki, qanunların pozulması deməkdir və cəmiyyətə ziyan vurmaq deməkdir: “Ona görə də, belə çağırışlar səsləndirən qüvvələr zərərsizləşdirilməli və onun qarşısı alınmalıdır: “Çünki ən azından biz qanunlara hörmət etməliyik, dövləti və milləti düşünməliyik. Partiyaların şüarları, siyasəti, cəmiyyətə verilən mesajları özləri bəyan edib, amma bu çağırışlar, mesajlar və bəyanatlar da qanun çərçivəsində olmalıdır, yəni cəmiyyətin və dövlətin inkişafına, dövlətçiliyin qorunmasına, milli maraqların müdafiəsinə yönəlməlidir, əks halda bu antitəbliğat dövlətimiz və cəmiyyətimiz üçün də ciddi təhdidlər yaradır. Ola bilər belə qüvvələr var və mümkündür ki, hansısa sifarişləri yerinə yetirsin. Çünki heç də bütün siyasi qüvvələr vətənpərvər ola bilməz. Bu baxımdan da, hesab edirəm ki, bu cür siyasət yürüdən siyasi qüvvələrin cavabını, qarşısını cəmiyyətin özü kəsməlidir və sərt təpki verməlidir. Eyni zamanda, paralel olaraq da, dövlət öz səlahiyyətlərinin və imkanlarından istifadə edib bunun qarşısını almalıdır”.

***Gülyana***

# Erməni Moskvada Rusiya Federasiyasının bayrağını təhqir etdi

Moskvada Ermənistan vətəndaşı Henrix Yeritsyan tərəfindən törədilən olay kameralara həkk olunub. SİA Rusiya teleqram kanallarına istinadən xəbər verir ki, Rusiya paytaxtının Streletsk keçidində yerləşən “Akademiya lda” (Buz Akademiyası) idman kompleksinin qarşısındakı bayraq dirəyindən Rusiya Federasiyasının dövlət bayrağını endirən erməni əlini-qolunu sallaya-sallaya oradan uzaqlaşıb. Sonradan polisin onu saxladığı bildirilsə də, rus ictimai rəyinin sözügedən hadisəyə biganə yanaşmaları təəccüb doğurur. Çünki söhbət bir dövlətin bayrağından gedir və həmin bayrağı Rusiya vətəndaşı deyil, qeyri-ölkənin vətəndaşı aşağı endirir.



Bu zaman sual yaranır: əgər həmin hadisəni azərbaycanlı etsəydi, Rusiyanın bəlli media qurumlarında və sosial şəbəkələrində necə səs-küy qalxardı? Reallıqda isə bunu heç bir azərbaycanlı etməz və belə davranışlar yalnız ermənilərin “tarixi məxsusluqlarına” aiddir.

***Rövşən RƏSULOV***

# Rus hərbi ekspert: Moskva İrəvan hadisələrini səhv təhlil edir

**Hərbi ekspert, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko Pravda.ru saytının baş redaktoru İnna Novikovaya müsahibəsində hazırda Ermənistanda nələr baş verdiyini, Paşinyanın hakimiyyətdə qalıb-qalmayacağını, eləcə də Rusiyanın postsovet məkanına təsirinin perspektivləri barədə fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

İqor Korotçenko: “Ermənistanda vəziyyət bütün sahələrdə (siyasətdə, iqtisadiyyatda, sosial cəhətdən) o qədər pisdir ki, heç kim bundan 5-6 ay sonra nə olacağını bilmir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

### Çətin vəziyyət

***- İqor, hazırda Ermənistanda nə baş verir?***

- Ermənistanda hakimiyyət uğrunda mübarizənin kəskin bir mərhələsi var: Paşinyan və onun siyasi rəqibləri. Ağır artilleriya, əslində hərbi çevrilişə çağıran Ermənistanın keçmiş prezidenti Robert Koçaryandır. Paşinyan isə ona sadiq generallara güvənir.

Ermənistan Baş Qərargahı daxilində, Ermənistan hərbi kəşfiyyatının rəhbərliyi altında və ona məxsus xüsusi hərbi hissələrə tabe olan bir qrup var. Kritik bir anda həlledici rol oynaya biləcək xüsusi qüvvələrdir. Bu səbəbdən Paşinyana qarşı çıxan hərbçilərin hərəkətləri daha qəti hərəkətlərlə dəstəklənə bilməz və bu, Paşinyanın əlinə oynayır.

Bundan əlavə, milli təhlükəsizlik xidmətinin bir hissəsi olan mühafizə xidməti onun strukturundan çıxarılıb və birbaşa Paşinyana tabedir. Beləliklə, daxili dairəni mümkün xəyanətdən sığortalayır.

Bu gün əhalinin təxminən 60-70%-i Paşinyanın tərəfindədir, 30-40%-i isə əleyhinədir. Buna görə də, əgər indi kəskin hadisələr baş vermirsə, bu, o deməkdir ki, Paşinyan indiki hakimiyyət uğrunda mübarizəni qazandı.

Eyni zamanda, Moskva Yerevanda baş verən bir şeyin erməni xalqının daxili işi olduğunu bildirərək hadisələri səhv şərh edir.

***- Ermənistan həqiqətən çox çətin vəziyyətdədir, 30 ildən sonra Dağlıq Qarabağ Azərbaycana qayıtdı. Paşinyanın bundan sonrakı proqramı nədir?***

- Ermənistanda vəziyyət bütün sahələrdə (siyasətdə, iqtisadiyyatda, sosial cəhətdən) o qədər pisdir ki, heç kim bundan 5-6 ay sonra nə olacağını bilmir. Hər kəs ancaq siyasi problemləri müzakirə edir. Siyasi elitalar bir-biri ilə güc və pul uğrunda mübarizə apardılar. Ancaq son dərəcə passiv olan Ermənistan xalqının əksəriyyəti heç bir tərəfə dəstək vermədi. Bu, hərbi məğlubiyyətdən sonra erməni cəmiyyətindəki vəziyyəti belə xarakterizə etmək olar:

-yorğunluq,
-məyusluq,
-çətin sosial-iqtisadi şəraitdə yaşamaq reallığı.

Rusiya İrəvanda baş verənləri izləyir. Ermənistan KTMT-dəki tərəfdaşımızdır, ikitərəfli münasibətlər çərçivəsində İrəvan qarşısında müttəfiqlik borclarımız var. Ancaq hər kəs Rusiyanın müdaxiləsinin öz zərərinə olacağını mükəmməl başa düşür. Buna görə də, erməni daxili siyasi çəkişməsində kimin qalib gələcəyini sakitcə gözləməliyik. İndiyə qədər Paşinyan sadəcə təəccüblü dərəcədə bir siyasi canlılıq nümayiş etdirdi.

***- “İskəndər”lə bağlı tamamilə diletant və həqiqətəuyğun olmayan ifadəsi ilə biabır oldu, amma bu biabırçılıqdan yaxa qurtardı...***

- Paşinyan başqalarını günahlandırdı, ona düzgün məlumat vermədiyini söylədi və Rusiya “İskəndər”inə qarşı bütün iddialarını geri götürdü. Onu bağışladılar, Moskvadan bir az uzaqlaşdırdılar və Ermənistanda geniş miqyaslı bir siyasi böhran yarandı. Paşinyan bu açıqlamanı bir gün əvvəl onu bütün günahlarda ittiham edərək böyük bir material ortaya qoyan rəqibi Serj Sarkisyana bir zərbə vurmaq üçün etdi. Paşinyan oxları Rusiyaya tərəf yönəltməyə ehtiyac olmadığı mənasında yaxşı bir dərs aldı. Ermənistandakı hər hansı bir siyasətçi üçün bu, çox baha başa gələ bilər.



*Bu gün əhalinin təxminən 60-70%-i Paşinyanın tərəfindədir, 30-40%-i isə əleyhinədir. Buna görə də, əgər indi kəskin hadisələr baş vermirsə, bu, o deməkdir ki, Paşinyan indiki hakimiyyət uğrunda mübarizəni qazandı*

### Təsir itkisi

- Onun əslində, kimin tərəfdarı olduğunu bilirik və o, nə etdiyini yaxşı başa düşür, buna görə də bu cür insanlar əyani dərsləri zəif qəbul etmirlər. Onu maliyyələşdirənlər və öyrədənlər isə nə etdiklərini yaxşı bilirlər. Qorxuram ki, o, bu postda qaldığı müddətdə Rusiya ilə qarşıdurma siyasəti davam edəcək (hələlik, itaət edir və amma sonra başqa bir şey edəcək).

- Ancaq Ermənistanda hərbi çevriliş edə bilmərik, elədir? Ermənistanın hərbçiləri bunu edə bilməzlər və Rusiya bu vəziyyətdə hadisələrin moderatoru deyil. Postsovet məkanında özümüzü gücləndirməyimiz lazım olan başqa bir məsələdir, çünki Rusiya tərəfindən MDB-dəki mövqelərdə ciddi itki var.

Ukraynada çox solğun görünürük, Gürcüstanda da digər ölkələrdə mövqeləri itiririk. Təəssürat belə yaranır ki, ya prosesləri idarə etmirik, ya da onları idarə edə bilmərik. Ancaq bu siyasi proseslərin nəticəsi Rusiyanın postsovet məkanındakı real təsir sahəsindən sıxışdırılmasıdır. Və bu, yalnız milli təhlükəsizliyimiz üçün sistemli bir problem deyil. Bu, MDB ilə qarşılıqlı fəaliyyətə cavabdeh olan və məsuliyyət daşıyan kadrların keyfiyyəti ilə bağlı bir sualdır. Hanı bizim;

* hakim yumşaq güc,
* Rossotrudniçestvo,
* “Russkiy Mir” Fondu?

Rusiyanın postsovet məkanında bir şeyə təsir göstərməsi üçün lazım olan on milyardlarla rubl haradadır? Postsovet məkanında siyasətimizin keyfiyyəti son dərəcə aşağıdır. İstisnasız olaraq bütün şöbələr qənaətbəxş olmayan bir iş keyfiyyəti nümayiş etdirirlər.

Hər yerdə Rusiya ilə əlaqəli fiqurlar siyasi cəhətdən iflasa uğrayır. Rusiyanın ictimai rəyə təsir rıçaqları postsovet məkanında hər il azalır.

Bütün bunlar sərhədlərimizdə Rusiyaya qarşı düşmən rejimlərin qurşağı ilə sona çatacaq. MDB ölkələrində xarici hərbi məsləhətçilər meydana çıxmağa davam edəcək və gələcəkdə ölkəmizə yönəlmiş silahlar, bir neçə dəqiqəlik uçuş məsafəsində olan raketlərlə təchiz olunmuş hərbi bazalar meydana çıxacaq və bu, bizim ölkəmiz üçün milli təhlükəsizlik keyfiyyətinin kəskin pisləşməsi deməkdir.

**Müsahibəni aldı - İnna Novikova**
**Tərcümə etdi - Elçin Bayramlı**

ANALİZ

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

17 mart

QARABAĞ AZƏRBAYCANDIR!

## Ronaldonun yoxluğu "Real"ı 304 milyon avro ziyana salıb



**Kriştiano Ronaldonun "Yuventus"a keçməsi "Real"da böyük itkilərə səbəb olub. Qol.az xəbər verir ki, bu barədə İspaniya mətbuatı yazıb. Bildirilib ki, Madrid klubu 2018-ci ilin iyul ayında Ronaldunu İtaliya təmsilçisinə satanda 30 yaşının ortalarına yaxınlaşan bir futbolçudan 100 milyon avro qazanmağı böyük iş hesab edirdi. Ancaq zaman keçdikcə portuqaliyalı hücumçunun yaratdığı boşluq "Real"da böyük xərclərə səbəb olub.**

"Kral klubu" Ronaldosuz dövrdə hücum xəttinə 304 milyon avro xərcləyib: Eden Hazarda 115 milyon, Vinisiusa 45 milyon, Rodriqoya 45 milyon, Mariano Diasa 22 milyon, Yoviçə 60 milyon və Brahim Diasa 17 milyon.

Futbolçuların transferindən sonra başqa bir məyusluq da onların performansındadır. Son çempionun yeni ulduzları ümumilikdə cəmi 35 qol vurub: Vinisius 13, Rodriqo 8, Mariano Diaa 6, Hazard 4, Yoviç 2 və Brahim Dias 2 qol. Bu vaxt ərzində Ronaldo isə "Yuventus"da 122 oyunda 95 qol vurub.

## Messidən La Liqada növbəti rekord




İspaniyanın "Barselona" futbol komandasının hücumçusu Lionel Messi ölkə çempionatında qol rekorduna imza atıb. Belə ki, futbolçu buna İspaniya La Liqasının XXVII turu çərçivəsində "Ueska" ilə matçında fərqlənməklə nail olub. Bu, mövsümün 25 oyununda Messinin 20-ci qolu olub.

Beləliklə, Messi La Liqa tarixində 13 mövsümdə ardıcıl olaraq azı 20 qol vuran birinci oyunçu olub. Qeyd edilir ki, argentinalı hücumçunun ardıcıl qollar seriyası 2008/2009-cu il mövsümündə başlayıb. Messi ən yaxşı nəticəni 2011/2012-ci il mövsümündə göstərib, futbolçu həmin vaxt 50 qol vurub.

## "Kurtlar vadisi kaos" hansı kanalda yayımlanacaq?

**Bir zamanların sevilən serialı "Kurtlar vadisi" "Kurtlar vadisi kaos" adı ilə ekranlara qayıdır. Axşam.az bildirir ki, növbəti aylarda çəkilişlərinə start veriləcək ekran işinin yayımalanacağı televiziya kanalı bəlli olub.**




Serialın nümayişi üçün əvvəl "Show TV"kanalı ilə razılıq əldə olunsa da, daha sonra istehsalçı şirkət fikrindən daşınıb və "Star TV" ilə müqavilə imzalayıb. Qeyd edək ki, serialın sentyabr-oktyabr aylarında tamaşaçıların ixtiyarına verilməsi planlaşdırılır.

## Mədə turşuluğu zamanı hil çayı içmək faydalıdır



**Novruz süfrəsinin təamları hilsiz başa gəlmir. Şəkərbura və paxlavanın hazırlanmasında ondan istifadə olunur. Hilin dənələrini qovurub üyüdəndən sonra şirniyyatın içinə qatırlar. Maraqlısı odur ki, dünyada geniş yayılan hili çox vaxt "kralların ədviyyatı" adlandırırlar. Vətəni Hindistan olan bu bitki Şri-lankada, Çində, Afrikada və Amerikada da becərilir.**

Hilin bazarlarda ən çox tünd yaşıl və ağ rəngi satılır. Hil toxumu yeməklərə, çaya və qəhvəyə qarışdırılıraraq istifadə edilir. Əgər mədə turşuluğu çoxalaraq qida borusunu yandırırsa, ən yaxşı üsullardan biri hil çayının içilməsidir. Qastrit və mədə qıcqırması zamanı çox faydalıdır.

Hil çayı yüksək xolesterini aşağı salır və immuniteti qüvvətləndirir. İnfeksion xəstəliklərdən və qripdən əziyyət çəkənlərin onun çayını dəmləyib içməık məsləhətdir.

Ağızdan xoşagəlməz qoxu gəlirsə, hil dənələrini çeynəmək lazımdır. Çeynədikdən sonra isə udmaq məsləhətdir. Çünki ola bilər ki, ağız qoxusu mədədə olan problemlərdən yaranısn və hilin toxumlarını udmaqla mədəni də müalicə etmək olar. Hil ürəkbulanma zamanı da yaxşı təsir edir, iştahanı artırır, mübadilə prosesini yaxşılaşdırır, köplə mübarizə aparır.

Artıq çəkidən azad olmaq üçün də hil çox faydalı vasitələrdən biridir. Onun aromatik yağlarını suya əlavə edib vanna qəbul olunması həm stres və gərginliyi aradan qaldırır, həm də əsəbləri sakitləşdirir.

Təbii antiseptik olduğundan soyuqdəymə zamanı onu çay və suya atıb xəstəyə vermək çox müsbət təsir göstərir. Boğaz ağrıları zamanı hil dəmləmələri ilə qarqara çox yaxşı təsirə malikdir. Diş ağrılarını azaldır, ürəyin fəaliyyətini yaxşılaşdırır. Axşamlar 1 stəkan nanə çayına 5-6 ədəd hil dənəsi qarışdırıb dəmləmək və yatmazdan 1 saat əvvəl içmək yuxunu rahatlaşdırır. İnfeksion xəstəliklər zamanı da hil çayı içmək orqanizmə müsbət təsir göstərir. Çalışmaq lazımdır ki, hili qabığından ayrılmasın, çünki əks halda o, əz ətrini çox tez itirir.

## Rusiyada dollar "qiymətdən düşür"?



Rusiyada maliyyə bazarları üzrə mütəxəssis Andrey Kuznetsov Amerika valyutasının çökəcəyini proqnozlaşdırır. SİA bu barədə rus mətbuatına istinad edir. Rusiyalı mütəxəssis sözlərinə görə, rubl bu ilin aprel ayının sonuna qədər dollara qarşı möhkəmlənə bilər. Kuznetsov bu barədə yerli mətbuata verdiyi açıqlamada bildirib. Onun sözlərinə görə, neft məhsullarının bahalaşması fonunda Rusiya valyutası möhkəmlənməkdə davam edəcək.

"Rublun lehinə iki amil oynaya bilər. Bunlardan biri neftə olan tələb, digəri isə vergi dövrünün başlanğıcı və aprel ayında gözlənilən ƏDV ödənişləridir".

Mütəxəssisin fikrincə, aprel ayının ortalarında maksimuma həddə çata bilən dollar, ayın sonuna qədər 75-76 rubldan 70-71 rubla düşə bilər. Qeyd edək ki, bu düşməni Kuznetsov Avropa valyutasına da şamil edir. Onun fikrincə, Rusiyaya qarşı tətbiq edilən sanksiyaların aradan götürülməsi dolları 67 rubla sala bilər.

## Alimlərdən xəbərdarlıq: Kredit kartları beyinə narkotik vasitə kimi təsir edir



Dünyada alış-verişdə kredit kartlarından istifadə günbəgün artır. ABŞ-da aparılan bir araşdırma zamanı kredit kartı istifadəsinin mənfi təsiri ortaya çıxıb. Araşdırmanı Massaçusets Texnologiya İnstitutunun (MIT) alimləri aparıb. Məlum olub ki, kredit kartı xərclənməsi beyində asılılıq yaradan narkotik tərkibli dermanlarla eyni kimyəvi reaksiyanı alovlandırır. Alimlər həmçinin kredit kartı ilə fiziki pul istifadəsi arasındakı fərqlər qiymətləndiriblər. Fiziki pul istifadə edildikdə beyindəki mükafat mərkəzinə hər hansı bir siqnal daxil olmayıb. Eyni mərkəzin kredit kartlarının istifadəsi zamanı təsirləndiyi diqqət çəkib./Publika.az

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**